

## Qarabağı tərk etməyən separatçılara qarşı antiterror əməliyyatı gündəmdə

*Prezident İlham Əliyev mayın 28-də Laçına səfəri zamanı Qarabağdakı qondarma qurumun "məmurları"nın bağışlanmasının yeganə yolunun onların təslim olmasından keçdiyini bildirib. "Hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var.*

Səh.9


# UNİKAL

№21 (2155) 2 iyun 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




## Brüssel danışıqlarının növbəti raundu olacaq

### Şarl Mişel: "Budəfəki danışıqlar çox məhsuldar keçdi"

*"Bugünkü danışıqlar çox məhsuldar keçdi və iyulun 21-də Brüsseldə keçiriləcək görüşə yaxşı hazırlıq oldu". "Unikal" xəbər verir ki, bunu Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan, Almaniya kansleri Olaf Şolts və Fransa dövlət başçısı Emmanuel Makronla görüşdən sonra deyib. Onun sözlərinə görə, tərəflər münasibətlərin normallaşması üzərində intensiv işləyir və bu formatda görüşü İspaniyada təkrarlamağı planlaşdırırlar: "May ayında Brüsseldə keçirilən görüşdə əvvəllər qaldırılan bütün məsələləri müzakirə etmək imkanımız oldu. Sərhədin delimitasiyası, sülh sazişinin hazırlanması məsələlərini müzakirə edə bildik və bu görüş iyulun 21-də Brüsseldə planlaşdırılan görüşə...*

Səh.2



Səh.5

## Turizm oliqarxlarının misli görünməmiş soyğunçuluğu

## "Ermənistan hələ də Azərbaycana qarşı revanşist fikirlərdən əl çəkmir"



*Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, deputat Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, İsrail prezidentinin Azərbaycana səfər etməsinin əhəmiyyətindən, bu səfərdən sonra ölkələrimiz arasında olan hərbi əməkdaşlığın hansı istiqamətdə inkişaf edə biləcəyindən və Azərbaycana qarşı düşmən münasibət...*

Səh.4

## Abel Məhərrəmovun ən gəlirli 2 obyekti əlindən çıxıb



*Bakı Dövlət universitetinin (BDU) sabiq rektoru Abel Məhərrəmovun ən gəlirli 2 obyektini satdığı iddia edilir. Bildirildiyinə görə, bu obyektlərdən biri "El Faro hotel Nabran" ailəvi istirahət mərkəzidir. 200 hektar ərazidə 61 milyon manat dəyəri olan həmin istirahət mərkəzini Məhərrəmov vaxtilə qızı...*

Səh.10

## Yeni güzəştlər İKT sahəsinə nə vəd edir?



*Azərbaycanda informasiya cəmiyyətinə keçidin təmin edilməsi, bu sahənin inkişafı dövlətin diqqətindədir. Azərbaycan hökuməti həm İKT sektorunun inkişaf etdirilməsində, həm də iqtisadiyyatın bir çox sahələrində yeni və qabaqcıl texnologiyaların tətbiq edilməsində mühüm təşəbbüslər həyata keçirir.*

Səh.11

# Pərvin Abıyeva: "Ziya Razinin çılpaq şəkil və videolarla şantaj edib"



***2017-ci ildə Azərbaycan gözəli seçilən model Razi Əliyevanın sevgilisi Ziya Hüseynzadə tərəfindən bir il işgəncələrə və şiddətə məruz qalması ölkə gündəmini silkələyib. Cütlük arasında baş verən qalmaqallı olaya aktrisa Pərvin Abıyeva münasibət bildirib.***

"Unikal" bizim media-ya istinadən xəbər verir ki, sənətçi sosial şəbəkə hesabında canlı yayım açaraq Ziyanın Raziyə dəfələrlə əl qaldıraraq şiddətli şəkildə döyməsi faktını pisləyib.

"Bu bir il ərzində Ziya Razinin telefonundan götürdüyü çılpaq şəkillərlə, videolarla və bir-birinə atdığı fotolarla başlayıb şantaj etməyə. Razidə "cəhənnəm olsun" deyib, Ziyanın yanından qaçıb gedir. Burada "Biri vardı, biri yoxdur" söhbəti yoxdur. Son bir ildir ki, Razini heç görmüsünüz? Razi bundan əvvəl Ziyanın evli olduğunu bilməyib. Bir həftədir bilib ki, Ziya ailəlidir. Bunu biləndən sonra Razi ondan qaçıb. Bundan sonra Ziya Razinin anasının qapısına gəlsə də, qız deyir ki, bizim bir yerdə olmağımız artıq mümkün deyil. Oğlan da acığa düşüb, qızın foto və videolarını sosial şəbəkələrdə yayır. Mən Razi ilə çörək kəsmişəm. Biz yaxın rəfiqə olmamışıq. Razinin xətrini çox istəyirəm. Özü ilə birgə Razini Amsterdama aparıb. Orada restoranların birində xoşagəlməz şeylər edir. Gizlincə elə çəkir ki, guya bunu edən Razidir. Sabah da qız bundan ayrılsa onun haqqında əlində şantaj etmək üçün material olsun. Ayıb deyil? Guya indi nə oldu? Özünü biabır etdin, şəklin ortalığa çıxdı. Özünlə bərabər ailən də biabır oldu. Güya Raziyə nə oldu ki?".

Pərvinin sözlərinə görə, bir neçə il əvvəl Razinin ad gününə avtomobil alan Ziya bu hadisələrdən sonra nəqliyyat vasitəsini geri istəyir: "Ziya özün də bilirsən ki, Razi necə bir qızdır... Marka geyinən, xarici ölkələri gəzən qızdır. Necə və nə cür edir, əcəb edir, özü bilər. Fakt odur ki, sən bu qızı tanıyanda belə tanımısan. Bu qızın əynində "Chanel", "Dior" və s. olub. Əgər bu qızdan istədiyini istəyirsənsə, ona da verməlisən. Avtomobil hədiyyə almısan, indi də onu geri istəyirsən. İki il qızın başına oyun açmısan və evə qapatmısan. Bir dəfə dalaşdılar, qız avtomobili keçirdi oğlanın adına və dedi ki, "Qırıl, uzaq dur məndən". Oğlan getdi-gəldi yalvardı, özünü öldürdü ki, yenidən keçirdi avtomobili qızın adına. O gün də yazıb ki, gətir avtomobili qaytar. Allah kəssin sənin verdiyin maşını. Verib, dərdindən ölən. Pul xərcləmək istəmirsiniz, gedib kasıb qız sevin. Sən Razi ilə sevgili olanda bilmirdin ki, gəlib deyəcək ki, ayda mənim bu qədər xərcim var".

# Elnarə Abdullayeva: "Cavan olmamışam, oğlan sevməmişəm"

***"Özüm özümə o qədər qadağalar qoymuşam ki... Heç bir kişi ağla gəlməyən o qadağanı qoya bilməz. Hərdən deyirəm ki, ölüb gedəndə mən nə cavab verəcəyəm bu qıza (özünü nəzərdə tutur - red.). Bu qızı qoymamışam yaşamağa".***



Bu sözləri Əməkdar artist Elnarə Abdullayeva qonaq olduğu "13 sual" verilişində deyib. Sənətçi adından yayılan "Ər arvadını döyməlidir" fikirlərinin ona aid olmadığını bildirib: "Elnarə heç zaman deməz ki, qadını əri döysün. Elnarə dəlidir, başı xarabdır, elə söz desin? Bu sözləri mən deməmişəm. Bunu bütün qadınlar, eləcə də kişilər bilsin. Onu xəbər portalları deyib, Elnarə yox".

Xanəndə həmçinin əlavə edib ki, hisslərlə qurulan ailərin 90 faizi dağılır: "Ərə gedəndə böyük qız, məsləhətə gedəndə isə kiçik qız olursunuz. Şiddət başqa, tərbiyə başqa şeydir. Hamı Elnarə Abdullayeva deyil. Mən səhv edən insan deyiləm. Anadan gəlmə beləyəm. Cavan olmamışam, oğlan sevməmişəm, heç kimlə danışmamışam. Xasiyyətim budur. Məntiq, ağıl, inam, vicdanla ailə qurarlar. Hisslərlə ailə qurmazlar. Hisslərlə ailə quranların 90 faizi boşanır. Heç kim övladlara kənardan ailə qurmaqla bağlı məsləhətlər verməsin (telekanallarda yayımlanan ictimai-sosial verilişlərin aparıcılarını nəzərdə tutur - red.). Xeyr, sənin onlarla işin olmasın. Mən özüm bilirəm ailədə necə tərbiyə vermək lazımdır. Nöqtə!".



# Brilliant Dadaşova Evliliklərinin 35-ci ilini qeyd etdilər

***Bu gün Xalq artisti Brilliant Dadaşova ilə həyat yoldaşı Ədalət Hacıyevin evlilik ildönümüdür.***

35 ildir ailəli olan cütlük özəl günlərini restoranlardan birində qeyd edir. Məşhurların da dəvət olunduğu gecədən görüntüləri Xalq artisti Röya Ayxan sosial şəbəkədə paylaşıb.

Qeyd edək ki, Ədalət Hacıyev Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının direktorudur. Onların Cahad adlı bir oğlu var.

# Rühəngiz Allahverdiyeva: "Ailəmi yalnış fikirlər yaymaqla dağıtdılar"

***Əməkdar artist Rühəngiz Allahverdiyevanın canlı efirdə dedikləri hər kəsi təəccübləndirib.***



"Unikal" bizim media-ya istinadən xəbər verir ki, sənətçi qonaq olduğu "Elgizlə izlə" ictimai-sosial verilişində başına gələn hadisəni gün üzünə çıxarmağa çəkinib.

Rühəngiz "Haqqınızı halal edin" deyərək, kövrəlib və bildirib ki, onun ailəsini yalan fikirlər yaymaqla dağıdıblar: "Heç kimin qəlbinə dəyən insan deyiləm. Heç kimin pulunu yeməmişəm. Heç zaman heç kimə pislik etməmişəm. Səhvsiz insan olmur. Bu günə qədər nəyə nail olmuşamsa, zəhmətimlə əldə etmişəm. Üç aydır ayağım şişmişdi, iltihab oldu. Bu günə qədər hələ də ayağım sağalmayıb. Ayaqqabımın içinə qan axa-axa toylara getmişəm. Pulumu zəhmətimlə qazanmışam. Çox adam deyir ki, niyə belə edirsən, çox vacibdir? Deyirəm ki, kommunal xərclər var. Onları ödəmək lazımdır. İki dənə nəsə alıb-qoymuşuqsa övladımız üçün etmişik. Evlənəndə də, uşaq deməsin ki, valideyn bu qədər işlədi, amma bir dənə üzük, sırğa qoymadı ki, ailə quranda özümlə aparım və ya bir xanımın boynuna, əlinə taxım. Həyatda mən sevgi xanımıyam. Sevə bilərəm, məndə bu ürək var. Sevgi söhbəti deyil. Tamam başqa məsələdir. Amma onu açıqlaya bilmirəm, çünki buna vicdanım yol vermir. Həyatımda heç kim yoxdur. Subay xanımam. Bu mənim şəxsi işimdir. Depressiyaya düşməmişəm. Ailəmdə söz olub. Biz mühüm şeylərlə maraqlanmalıyıq, bunları işıqlandırmalıyıq. Elə insanlar var ki, həyatını işıqlandırır, evini yıxır. Mən bunu çəkməmişəm. Ailəmi yalnış fikirlər yaymaqla dağıtdılar".

# Zakir Həsənovdan separatçılara xəbərdarlıq



***2023-cü ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunun Əməliyyat (Komando), motoatıcı, mexanikləşdirilmiş bölmələrinin komandirləri və onların müavinləri ilə Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzində keçirilən təlim-metodiki toplanış başa çatıb.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyindən məlumat verilib. Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti iyunun 1-də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinə gələrək təlim-metodiki toplanış ilə bağlı rəhbər heyətin məruzələrini dinləyib.

Bildirilib ki, komandir heyəti ilə müasir döyüşdə taktiki fəaliyyətlərin hazırlanması və aparılması, hərtərəfli təminatın təşkili, müxtəlif ərazi və hava şəraitində bölmələrin və atəşin idarə edilməsi, eləcə də digər mövzularda yeni biliklərin aşılanması məqsədi ilə metodiki məşğələlər keçirilib.

Təlim metodiki toplanışın gedişatını müsbət qiymətləndirən general-polkovnik Z.Həsənov toplanışın yekununda şəxsi heyət qarşısında çıxış edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşdə çıxışında Qarabağ iqtisadi rayonunda qeyri-qanuni fəaliyyət göstərən, özlərini "parlament", "prezident", "nazir", "deputat" adlandıran ünsürlər barədə səsləndirdiyi fikirləri və onlara tətbiq oluna biləcək amnistiya şərtlərini bir daha toplanış iştirakçılarının diqqətinə çatdırıb.

Müzəffər Ali Baş Komandanın Qarabağ iqtisadi zonasında təhlükəsizliyin təmin edilməsi ilə bağlı çıxışlarından irəli gələn, Azərbaycan Ordusunun qarşısında duran tapşırıqların qısa zamanda yerinə yetirilməsinin zəruriliyi qeyd edilib.

Dövlətimizin başçısının Azərbaycan Ordusuna yüksək diqqət və qayğı göstərdiyini vurğulayan müdafiə naziri bildirib ki, ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizlik tədbirlərinin daha da artırılması üçün 1 milyard 105 milyon manat, o cümlədən xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə xərclər üçün 1 milyard manat əlavə edilməsi Orduda aparılan islahatlar çərçivəsində yeni müasir silah və hərbi texnikanın alınmasına imkan verəcəkdir.

Sonra Azərbaycan-Ermənistan şərti sərhədi və Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraiti təhlil edilib.

Son vaxtlar Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin hərbi daşımaları həyata keçirməsi, bölmələrimizin mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstərməsi, eləcə də Ağdam, Tərtər və digər rayonlar istiqamətlərində Ordumuzun mövqelərini atəşə tutması nəticəsində yarana biləcək gərginlik xüsusi vurğulanıb.

Müdafiə naziri qeyri-qanuni erməni silahlı birləşmələrinin fəaliyyətlərinin fasiləsiz müşahidəsinin bundan sonra da davam etdirilməsi, eləcə də törədilə biləcək istənilən təxribatın qarşısının dərhal və qətiyyətlə alınmasına daim hazır olmaq barədə konkret tapşırıqlar verib.

Nazir, həmçinin hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsi məqsədilə keçirilən döyüş hazırlığı tədbirlərində müasir döyüş üsulları, arsenala yeni daxil edilən silah və hərbi texnikanın effektiv tətbiqi qaydalarının şəxsi heyətə öyrədilməsinin vacibliyini vurğulayıb.

General-polkovnik Z. Həsənov xidməti-döyüş fəaliyyəti zamanı təhlükəsizlik qaydalarına ciddi əməl edilməsini, bu qaydaların müntəzəm olaraq şəxsi heyətə çatdırılmasını, həmçinin onlara riayət olunmasına daim nəzarət edilməsini tapşırıb.

Sonda qoşun xidmətinin təşkili, xidməti və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, həmçinin mühəndis və tibbi təminat üzrə zəruri tədbirlərin davam etdirilməsi ilə əlaqədar vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyulub.

# Cahangir Əsgərovun subsidiya qalmaqalı

## Monopolist şirkət olduğu halda AZAL niyə büdcədən yardım istəyir?

***Yola salmaq üzrə olduğumuz həftə, mayın 31-də parlamentin plenar iclasında "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsinin icrası haqqında" qanunun layihəsinin birinci oxunuşda müzakirəsi olub. Müzakirədə çıxış edən deputatlardan Qüdrət Həsənquliyev ilginc məqama toxunub. Millət vəkili bildirib ki, subsidiyalar müəyyən xərclərin qarşılanması üçün ödənilir, amma 2022-ci ildə AZAL-a verilən 63.1 milyon manatlıq subsidiyanın 26.4 milyon manatı şirkətin hesabında saxlanılıb. Sitat: "Bu dövlət vəsaiti ilə dost tutmaqdır, proteksionizmdir, yoxsa nə? Xidmət haqqının çox yüksək olduğu monopolist şirkətə niyə subsidiya verilməlidir ki, o da bu vəsaitləri hesabında saxlasın?"***

Qeyd edək ki, "Azərbaycan Hava Yolları" QSC-yə (AZAL) subsidiyaların ayrılması uzun müddətdir ekspertlər arasında, mediada, cəmiyyətdə müzakirə mövzusudur. Məsələn, bir müddət öncə AZAL-ın təyyarə biletlərinin baha olmasından gileylənən başqa bir millət vəkili Aqil Abbas demişdi ki, dövlət AZAL-a bu qədər subsidiya verir, amma qiymətlər endirilmir. Sitat: "Bəlkə, ciddi bir müraciət hazırlayaq. Deputatların biletin qiyməti ilə bağlı dedikləri fikirlər havada qalır..."

Əksəriyyəti isə o təəccübləndirir ki, bazarda inhisarçı olasan, bütün uçuşlara, yerüstü xidmətlərə nəzarət edəsən, fantastik qiymətlərə uçuş biletləri satasan, üstəlik, yenə də zərərlə-ziyanla işləyəsən! Məsələ burasındadır ki, bir il öncə "Azərbaycan Hava Yolları"nın 2020-ci ili 76 milyon 415 min manat xalis zərər ilə başa vurduğu açıqlanmışdı. Halbuki, AZAL 2019-cu ili 78 milyon 770 min manat xalis zərər ilə bağlamışdı. Üstəlik, elə həmin 2020-ci ildə AZAL hökumətdən COVID-19 pandemiyası ilə əlaqədar olaraq 232 milyon 82 min manat subsidiya da almışdı!



Bundan başqa, Cahangir Əsgərovun rəhbəri olduğu QSC-nin ümumi borcunun da 2,2 milyard olduğu aydınlaşmışdı. Yenə də inhisarçı şirkət olduğu, təyyarə biletlərini dəfələrlə baha qiymətə satdığı, dövlətdən maliyyə yardımı aldığı halda! Biz hələ AZAL-ın sifariş etdiyi təyyarələrin pulunu belə dövlətin ödədiyini demirik.

Ekspertlərin çoxu belə qənaətdədir ki, "Azərbaycan Hava Yolları"nın idarəetməsi qeyri-effektivdir, onun fəaliyyəti ilə bağlı qeyri-şəffaf məqamlar yetərincədir, bu səbəbdən də nə AZAL-ın monopolist olması, nə uçuş biletlərini baha satması, nə yerüstü xidmətlərdən böyük pullar qazanması, nə də büdcədən yardım alması borc bataqlığından çıxmasına gətirib çıxarmır. Əvəzində biz AZAL "şef"inin ailə biznesinin ilbəil böyüdüyü, genişləndiyi, bu biznesə həm ölkə daxilində, həm də ölkə xaricində ciddi kapital tələb edən sərmayələr yönəldildiyi barədə xəbərlər oxuyuruq. Bu sərmayələrin qaynağı nədir? Həmin suala nə KİV, nə cəmiyyət heç cür ağlabatan cavab ala bilmir. Aydın deyil ki, niyə "Azərbaycan Hava Yolları" yazıda vurğuladığımız çoxsaylı komponentlərə baxmayaraq borc içindədir, lakin Cahangir müəllimin ailə biznesi çiçəklənir, inkişaf edir?!

Ən maraqlısı isə odur ki, məmur korpusundakı "köhnə eşalon"un hələ də kreslosunu qoruyub saxlayan azsayda nümayəndələrindən biri olan 73 yaşlı Cahangir müəllimin iki ildir ki, təqaüdə yola salınacağından danışılsa da, belə xəbərlər hələlik təsdiqini tapmır. Halbuki hətta deputatlar da öz çıxışlarında bəyan edirlər ki, AZAL-ın qocaman rəhbərinin vəzifəsində qalması üçün bir dənə belə səbəb yoxdur. "Azərbaycan Hava Yolları" borc bataqlığındadır və onu düşdüyü indiki durumdan çıxarmağın yeganə yolu bu QSC-də köklü islahatlar aparmaqdadır. Həmin islahatlara isə AZAL-da rəhbər dəyişikliyindən start verilməsi tamamilə məntiqə və məqsədə uyğundur. Çünki "Azərbaycan Hava Yolları"nda Müşahidə Şurası yaradıldıqdan sonra bu dövlət şirkəti üçün parlaq günlərin başlayacağına dair ümidlər də yetərincə doğrulmayıb. Belə görünür, Cahangir müəllim vəzifədə qaldığı müddətdə oxşar ümidlər bəsləməyin bir o qədər də mənası qalmayıb. Hərçənd, Əsgərovun özü və ətrafındakılar, deyəsən, fərqli qənaətdədirlər. Çünki onlar bir müddət əvvəl 2022-ci ilin xalis mənfəətlə başa vurulmasını, az qala, tarixi uğur kimi qələmə vermişdilər. Əslində isə dünyanın ən bahalı aviaşirkətlərindən biri olduğu, eyni zamanda hər il dövlət büdcəsindən külli miqdarda dotasiya aldığı, bu da azmış kimi, ölkənin hava nəqliyyatında inhisarçı mövqe tutduğu halda AZAL-ın barı bircə ili zərərsiz başa vurmasından təbii heç nə ola bilməz. Elə QSC rəhbərliyinin məsələyə bu prizmadan baxmaması kifayət edir ki, onların "Azərbaycan Hava Yolları"nı borc bataqlığından çıxara biləcəyinə ümidimizi üzək...

***Sənan Mirzə***

# Qarabağı tərk etməyən separatçılara qarşı antiterror əməliyyatı gündəmdə

***Prezident İlham Əliyev mayın 28-də Laçına səfəri zamanı Qarabağdakı qondarma qurumun ”məmurları”nın bağışlanmasının yeganə yolunun onların təslim olmasından keçdiyini bildirib.***

“Hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə “parlament” buraxılmalıdır, özünü “prezident” adlandıran ünsür təslim olmalıdır, bütün “nazirlər”, “deputatlar” və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər və hər hansı bir amnistiyadan söhbət gedə bilər”, - deyə Prezident qeyd edib.

Separatçıların yaydıqları bəyanatlardan isə belə aydın olur ki, onlar təslim olmaq niyyətində deyillər.

Məsələ ilə bağlı “Unikal”a açıqlama verən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, deputat Səməd Seyidov bildirib ki, Azərbaycan sülh tərəfdarıdır: “Ölkəmiz bu proseslərdə çox səbirlidir. Azərbaycan yeni müharibə etmək niyyətində deyil. Prezident İlham Əliyev də dəfələrlə bu barədə çıxış edib, lakin Azərbaycanın da səbri hansısa bir həddə qədərdir. Dövlətimizin mövqeyi Prezident İlham Əliyevin Laçın rayonuna səfəri zamanı etdiyi çıxışında birbaşa olaraq əks edilib. Bu da sülhə dəvətdir. Bu, təhdid deyil, sadəcə izahatdır ki, separatçılar üçün başqa variant, başqa yol yoxdur. Əgər bunu etməyəcəklərsə, deməli onlar nəinki Azərbaycana qarşı, həmçinin dünyaya qarşı gedirlər. Ona görə ki, dünya artıq Azərbaycanın yanındadır. Mən əminəm ki, bu proses öz həllini tapacaq. Prezident İlham Əliyev də bildirib ki, separatçılar öz xoşları ilə təslim olmasalar, onların Azərbaycan ərazilərində mövcudluğuna və “təşkilatlanmalarına” imkan verilməyəcək. Bu gün dünya məhz bu problemdən, bu xəstəlikdən əziyyət çəkir. Separatçılara dəstək olan qüvvələr özləri bəlaya düçar olurlar. Necə ki, Ermənistan düçar oldu. Əgər bizə qarşı hər hansı ciddi təhlükə yaranarsa, beynəlxalq qanunlar çərçivəsində ölkəmizin suverenliyini, ərazi bütövlüyünü qoruyacağıq”, - deyə deputat qeyd edib.



**Səməd Seyidov: “Prezidentimizin dediyi kimi, onların Azərbaycan ərazilərində mövcudluğuna və “təşkilatlanmalarına” imkan verilməyəcək”**

Politoloq Məhəmməd Əsədullazadə isə deyib ki, Qarabağdakı separatçıların silahlandırılmasını əsasən Rusiya həyata keçirir və prosesin mərkəzində Moskva dayanır. Onun fikrincə, konkret olaraq Rusiya çalışır ki, oradakı ermənilər Azərbaycana inteqrasiya olunmasın. Onun sözlərinə görə, ümumiyyətlə, Rusiya sülh prosesini sabotaj etməyə çalışır: “Ruben Vardanyan da Azərbaycana qarşı müharibə bəyanatları ilə çıxış edir, hədələyici tonda açıqlamalar verir. Cənab prezident İlham Əliyevin Laçından xəbərdarlıq etməsi onlara dərs olmadı. Separatçılar bundan dərs çıxarmaq əvəzinə, daha da qızışdırıcı mövqe tutmağa çalışırlar”.



**Aqşin Kərimov: “Zakir Həsənovun orduya “hazır olun” tapşırığı mümkün antiterror əməliyyatlarının anonsu hesab edilə bilər”**

Müsahibimiz qeyd edib ki, Qarabağdakı separatçılar təxribata hazırlaşırlar: “Burada da əsas rolu Rusiya oynayır. Rusiya çalışır ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi bağlanmasın. Əsas plan bundan ibarətdir”.

“İstənilən halda Azərbaycan bütün mövqelərə hakimdir və təxribatlara lazımi səviyyədə və öldürücü şəkildə cavab verəcək”, - deyə Məhəmməd Əsədullazadə vurğulayıb.

Siyasi şərhçi Aqşin Kərimov isə başqa bir məqama diqqət çəkib. Onun sözlərinə görə, İlham Əliyevlə Nikol Paşinyan arasında Kişineuda keçiriləcək görüşə saatlar qalmış müdafiə naziri Zakir Həsənovun Ordunun Əməliyyat (Komando), motoatıcı, mexanikləşdirilmiş bölmələrinin komandirləri və onların müavinləri ilə görüşündə verdiyi tapşırıqlar təsadüf sayıla bilməz: “Həsənovun tapşırıqlarında vacib xətt: Azərbaycan Ordusu Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə erməni separatçılarının yarada biləcəyi təxribatın qarşının alınmasına hazır olsunlar. Bu, mümkün antiterror əməliyyatlarının anonsu hesab edilə bilər. Paralel olaraq Azərbaycan-Ermənistan sərhədindəki əməliyyat şəraiti təhlil edilib. Əliyev-Paşinyan görüşü günü Müdafiə Nazirliyinin bir daha şərti sərhəd ifadəsindən istifadə etməsi “danışıqlar nəticəsiz qalarsa, Ordumuz döyüş tapşırıqlarını icra edəcək” mesajının bəyanıdır. Moldovanın paytaxtındakı danışıqlarda Paşinyanı, müzakirələrin digər iştirakçılarını Azərbaycanın real hərbi güc tətbiq etməsinə inandırmaq üçün Müdafiə Nazirliyinin yaydığı informasiya yaxşı psixoloji təzyiqdir”.

Şərhçinin qənaətincə, Kişineu müzakirələrindən çıxan nəticələr Azərbaycanın atacağı addımların səmtini müəyyən edəcək: “Paşinyan Əliyevin şərtlərini qəbul edib boynuna yük götürsə, Bakı danışıqların tempini saxlayacaq. Paşinyan nala-mıxa vurub İrəvanın sülh üçün müvazinətini itirdiyini göstərsə, Azərbaycan Ordusu görüşdən sonra dövriyyəyə girə bilər. İlham Əliyevin bir neçə gün öncə Laçından səsləndirdiyi bəyanatlar fonunda güc tətbiqi amili aktuallıq qazanır”.

Mövzu barədə Modern.az-a danışan sabiq xarici işlər naziri Tofiq Zülfüqarov isə deyib ki, Prezident İlham Əliyevin mövqeyini bu cür açıq şəkildə sərgiləməsi faydalı, həm də önəmlidir. ”Çünki istər-istəməz orada yaşayan insanlar, yəni ermənilər gələcəyin necə olacağını düşünür. Azərbaycanın dövlət başçısı çox aydın şəkildə dilə gətirdi ki, ermənilər hansı yolu seçməlidir. Amma onu da söyləmək lazımdır ki, ən yaxşı döyüş silahsız qalib gəldiyindir. İlham Əliyev hansı vəziyyətin hakim olduğunu və əbəs yerə erməni cavanlarının qarşıdurmaya cəlb edilməməsini qarşı tərəfin diqqətinə çatdırdı. Təbii ki, onların silahı yerə ataraq təslim olması bizə də xeyirdir”.

T.Zülfüqarov onu da vurğulayıb ki, separatçıların müsbət cavab verməsi gözlənilmir: ”Burada əsas məsələ Qarabağda yaşayan etnik ermənilərin bizim sorğumuza müsbət cavab verməsidir. Mən əminəm ki, sadə əhali düzgün seçim edəcək. Hesab edirəm ki, Azərbaycan onlara fikirləşmək üçün vaxt verməlidir. Kimlər ki, bizə qarşı partizan müharibəsi aparmaq istəyir, onların aqibəti yaxşı olmayacaq. Ümumiyyətlə, indi tam fərqli bir vəziyyət hökm sürür. Azərbaycan bütün Qarabağ ərazisinə nəzarət edir. Bizə müqavimət göstərmək istəyənlər isə məhv olacaq. Onu da qeyd etmək lazımdır ki, qeyri-rəsmi şəkildə ermənilərlə təmasları davam etdirmək lazımdır”.

***Murad İbrahimli***



# Baş katib təbrik məktubu göndərdi

***Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi Njupuo Yap Mariatu Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.***

“Unikal” xəbər verir ki, təbrikdə deyilir:

”Zati-aliləri, cənab Prezident! Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi, Azərbaycan xalqına tərəqqi və rifah arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Azərbaycanla Beynəlxalq Mülki Müdafiə Təşkilatı arasındakı yüksək səviyyəli əməkdaşlıqdan məmnunam. 2023-cü il mayın 18-19-da ölkənizə rəsmi səfərim zamanı Zati-alinizlə məhsuldar görüş keçirmək şərəfinə nail oldum.

Mən mülki müdafiə sahəsində tərəfdaşlığımızın perspektivlərini möhkəmləndirmək istiqamətində işləmək əzmində olduğuma Sizi əmin edirəm. Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm”.

# Xaricdə təhsil alan 102 nəfərin diplomu tanınmadı

***May ayı üzrə 734 müraciətçinin 632-si barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 102 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.***



Bu barədə “Unikal”a Təhsildə Keyfiyyət Təminatı Agentliyindən məlumat verilib.

Tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 94, dövlət nümunəli olmayan diplom səbəbilə 3, digər səbəblər üzrə 5 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Ukraynadan 328, Rusiyadan 151, Türkiyədən 109, Gürcüstandan 54, Belarusdan 30, digər ölkələrdən isə 62 müraciətin olduğu müşahidə olunur.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, maliyyə üzrə 95, iqtisadiyyat üzrə 80, hüquqşünaslıq üzrə 69, menecment üzrə 44, bizensin idarə edilməsi üzrə 40 müraciətçi qeydə alınıb.

Bildirilib ki, sənədlərə ortalama baxılma müddəti 15 iş günü təşkil edib. Vətəndaşlar xarici ali təhsil ixtisaslarının tanınması üçün www.taninma.az keçidinə daxil ola bilərlər.

# İlham Əliyev Zelenski ilə görüşdü



***İyunun 1-də Moldovanın paytaxtı Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşü olub.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əlaqələr ətrafında fikir mübadiləsi aparıldı, Prezident İlham Əliyevin 2022-ci ilin yanvarında Ukraynaya səfəri və səfər zamanı keçirilmiş müzakirələr qeyd edildi. Azərbaycan ilə Ukrayna arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə olundu.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan Respublikasının Ukraynaya yeni səfiri təyin olunub və səfir tezliklə fəaliyyətə başlayacaq.

Prezident Volodimir Zelenski Azərbaycanın Ukraynaya humanitar yardımlarına, ukraynalı uşaqlara göstərilən qayğıya və onların Azərbaycana səfərlərinin təşkil olunmasına görə təşəkkürünü bildirdi və bunun çox yüksək qiymətləndirildiyini dedi.

Söhbət zamanı Azərbaycanın və Ukraynanın beynəlxalq təşkilatlar çərçivəsində bir-birinin ərazi bütövlüyünü və suverenliyini dəstəkləməsi məmnunluqla qeyd olundu.

# Moldovada Zirvə toplantısı çərçivəsində beştərəfli görüş keçirildi



**İyunun 1-də Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev,** Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts və Fransa Respublikasının Prezidenti Emmanuel Makron arasında qeyri-rəsmi görüş keçirilib.

"Unikal" xəbər verir ki, bu barədə AZƏRTAC məlumat yayıb.

# Baş nazir bu şəxslərlə bağlı qərar verdi



***Əlilliyi olan şəxslərin reyestrinin aparılması Qaydasına dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi əlilliyi olan şəxslərin reyestrinin aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etməlidir.

İndiyə qədər bu səlahiyyət Azərbaycan Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyində idi.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Kılıçdaroğlunun partiyasının bütün rəhbərliyi istefa verdi

***Cümhuriyyət Xalq Partiyasının İcraiyyə Komitəsinin 17 üzvünün hamısı istefa verdi.***

"Unikal" yerli KİV-ə istinadən xəbər verir ki, bu, Türkiyədə keçirilən prezident seçkilərində müxalifət lideri Kamal Kılıçdaroğlunun məğlubiyyətindən sonra baş verib.

Xatırladaq ki, ikinci turda Ərdoğan 52 faizdən çox, Kılıçdaroğlu isə demək olar ki, 48 faiz səs toplayıb.

# Mehriban Əliyevadan Uşaqlar Günü ilə bağlı paylaşım



***Birinci vitse-prezident Mehriban Əliyeva 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə paylaşım edib.***

"Unikal" xəbər verir ki, paylaşımda deyilir: "Balaca soydaşlarımızı səmimi-qəlbdən təbrik edir, bütün balalara möhkəm can sağlığı və xoşbəxt həyat arzulayıram!".

# Brüssel danışıqlarının növbəti raundu olacaq

## Şarl Mişel: "Budəfəki danışıqlar çox məhsuldar keçdi"

***"Bugünkü danışıqlar çox məhsuldar keçdi və iyulun 21-də Brüsseldə keçiriləcək görüşə yaxşı hazırlıq oldu".***



"Unikal" xəbər verir ki, bunu Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişel Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan, Almaniya kansleri Olaf Şolts və Fransa dövlət başçısı Emmanuel Makronla görüşdən sonra deyib.

Onun sözlərinə görə, tərəflər münasibətlərin normallaşması üzərində intensiv işləyir və bu formatda görüşü İspaniyada təkrarlamağı planlaşdırırlar: "May ayında Brüsseldə keçirilən görüşdə əvvəllər qaldırılan bütün məsələləri müzakirə etmək imkanımız oldu. Sərhədin delimitasiyası, sülh sazişinin hazırlanması məsələlərini müzakirə edə bildik və bu görüş iyulun 21-də Brüsseldə planlaşdırılan görüşə əla hazırlıq idi".

Qeyd edək ki, Kişinyovda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistan Baş naziri Nikol Paşinyan, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, Almaniya Kansleri Olaf Şolts və Fransa Prezidenti Emmanuel Makron arasında qeyri-rəsmi görüş keçirilib.

# Hikmət Hacıyevdən Kişineu görüşü ilə bağlı paylaşım

Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel iyunun 1-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan, Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts və Fransa Respublikasının Prezidenti Emmanuel Makron arasında keçirilmiş qeyri-rəsmi görüşlə bağlı paylaşım edib.

"Unikal" xəbər verir ki, paylaşımda deyilir: "Prezident Şarl Mişel tərəfindən üçtərəfli formatda, həmçinin Almaniya və Fransanın iştirakı ilə Avropa Siyasi İcması çərçivəsində keçirilən görüş qeyri-rəsmi, müsbət və səmərəli atmosferdə keçdi. İyulda üçtərəfli görüşlərin növbəti mərhələsinin Brüsseldə keçirilməsi razılaşdırılıb".



# Azərbaycan və Ermənistanın XİN rəhbərləri ABŞ-da görüşəcək

***Azərbaycan və Ermənistanın xarici işlər nazirləri arasında danışıqların növbəti raundu iyunun 12-də ABŞ-da başlayacaq.***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan Moldovada erməni icması ilə görüşündə bildirib.

Baş nazir qeyd edib ki, sabah Moskvada nəqliyyat kommunikasiyalarının bloklanması məsələləri üzrə üçtərəfli işçi qrupunun iclası keçiriləcək.

# İranda azərbaycanlı tələbəyə casusluq ittihamı irəli sürülüb

***İranda itkin düşdüyü bildirilən Almaniyanın Yena Universitetinin azərbaycanlı tələbəsi, 27 yaşlı Fərid Səfərliyə casusluq ittihamı irəli sürülüb.***

"Unikal" xəbər verir ki, bu barədə apa-ya açıqlamasında anası Dilarə Əsgərova məlumat verib.

O bildirib ki, Fərid Səfərlini İranda həbs edilib: "Bu gün Azərbaycan Xarici İşlər Nazirliyindən mənə məlumat verildi ki, İran tərəfi onlara rəsmi cavab verib. Cavabda qeyd edilib ki, Fərid Səfərli İranda casusluq ittihamı ilə həbs edilib. Hətta bizim konsulluq tərəfindən Fəridlə bir neçə dəfə telefon danışığı olub. Hazırda biz Fəridlə görüş tələb edirik. Konsulluğumuz da bu barədə İranın adiyyati qurumlarına müraciət edib".

Dilarə Əsgərova qeyd edib ki, oğluna verilən ittiham əsassızdır: "İttiham saxtadır, oğlum casusluq etməyib. Biz verilən ittihamları qəbul etmirik".

Qeyd edək ki, Fərid Səfərli fevralın 20-də eyni universitetdə təcrübə keçmiş həkim sevgilisini görmək üçün Tehran şəhərinə gedib. F.Səfərli martın 5-də Almaniyaya qayıtmalı olsa da, geri qayıtmayıb. Martın 4-dən etibarən Fəridin telefonu sönüb, onunla əlaqə tamamilə itib.

# "1975-ci ilin xəritələri əsasında delimitasiya aparmağa hazırıq" - Paşinyan

***Ermənistanın baş naziri Nikol Paşinyan Moldovanın erməni icması ilə görüşündə Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünü şərh edərkən İrəvan və Bakının 1975-ci ilin sovet xəritələri əsasında delimitasiya aparmaq barədə ilkin razılığa gəldiklərini bildirib.***

"Unikal" xəbər verir ki, o, qeyd edib ki, ümumilikdə müzakirəni faydalı hesab etmək olar.

Baş nazirin sözlərinə görə, danışıqların birinci bəndi tərəflərin Praqada razılaşdığı Alma-Ata Bəyannaməsi əsasında ərazi bütövlüyünün qarşılıqlı tanınması ilə bağlı olub.



# Samir Nuriyev Emma Nikolsonla görüşdü

***Iyunun 1-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyev ölkəmizdə səfərdə olan Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonla görüşüb.***



"Unikal" xəbər verir ki, görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında dostluq və çoxşaxəli tərəfdaşlığa söykənən ikitərəfli münasibətlərin davamlı şəkildə uğurla inkişaf etdiyi bildirilib. Neft-qaz, yaşıl enerjiyə keçid, ticarət, nəqliyyat, təhsil və digər sahələrdə əhəmiyyətli nailiyyətlərin əldə olunduğu vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunan ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işlərinin fəal şəkildə davam etdirildiyi, çox qısa vaxt ərzində və daxili maliyyə imkanları hesabına böyük nəticələrin əldə olunduğu diqqətə çatdırılıb.

Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında həyata keçirilən bərpa və yenidənqurma işlərində, xüsusilə şəhərsalma və minatəmizləmə fəaliyyətlərində Böyük Britaniya şirkətləri ilə səmərəli əməkdaşlıq edildiyi qeyd olunub.

Azərbaycan və Böyük Britaniya arasında dostluq əlaqələrinin daha da gücləndiriləcəyinə, ikitərəfli gündəliyin bütün sahələrində yeni nailiyyətlərin əldə olunacağına dair əminlik ifadə edilib.

# Sərhədi pozduqlarına görə 48 nəfər saxlanıldı

***Dövlət Sərhəd Xidməti tərəfindən 2023-cü ilin may ayı ərzində dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, qaçaqmalçılıq, qeyri-leqal miqrasiya, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri davam etdirilib.***



"Unikal" xəbər verir ki, ay ərzində dövlət sərhədini pozduqlarına görə 48 nəfər saxlanılıb, onların 21 nəfəri Azərbaycan Respublikası, 8 Nepal, 7 Hindistan, 4 Pakistan, 2 Türkiyə, 1 Əfqanıstan, 1 Əlcəzair, 1 Qana, 1 Özbəkistan və 2 Ermənistan vətəndaşları olublar.

Qanunsuz miqrasiya ilə mübarizə fəaliyyətləri çərçivəsində 24 nəfər saxta tarix möhürləri və saxtalaşdırılmış pasportla dövlət sərhədini keçməyə cəhd göstəri.

Sərhəd rejim qaydalarını pozduqlarına görə 920 nəfər saxlanılaraq barələrində müvafiq tədbirlər görülüb.

Cinayətkarlığa qarşı mübarizə tədbirləri nəticəsində Azərbaycan Respublikası hüquq-mühafizə orqanları tərəfindən axtarışda olan 286 nəfər aşkarlanaraq aidiyyəti orqanlara təhvil verilmiş, ölkədən çıxışı qadağan olan 449 nəfərin ölkəni tərk etməsinin, girişi qadağan olan 19 nəfərin Azərbaycan Respublikasına daxil olmasının qarşısı alınıb.

Narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində 118 kq 383 qram narkotik vasitə və 1180 ədəd psixotrob həb aşkarlanaraq qanunsuz dövriyədən çıxarılıb.

Qaçaqmalçılıq fəaliyyətinə qarşı mübarizə çərçivəsində həyata keçirilmiş tədbirlər nəticəsində ümumi dəyəri 612 min 36 manat olan qaçaqmal, o cümlədən narkotik vasitə, mobil telefonlar və tütün məmulatları saxlanılmışdır.

Dövlət sərhədlərimizin etibarlı mühafizəsinin təşkili istiqamətində tədbirlər davam etdirilir.

# "İnsanlar sel hadisəsi ilə bağlı xəbərdarlıqlara əməl etmirlər" - Nazirlik sözçüsü

***Hidrometeoroloqlar tərəfindən verilən hava proqnozlarına, xəbərdarlıqlara, çaylardakı sel-daşqın təhlükəsi ilə bağlı əhaliyə edilən müraciətlərə baxmayaraq təəssüf ki, bəzən vətəndaşlarımız tərəfindən hava haqqında verilən xəbərdarlıqlara məhəl qoyulmur, güclü külək və sel-daşqın təhlükəsinin fərqinə varılmır.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova "Unikal"a açıqlamasında hava şəraiti ilə bağlı əhaliyə ehtiyatlı davranmaları üçün zəruri məqamları diqqətə çatdırıb:

"Vətəndaşlardan artıq dərəcədə xahiş edirik ki, hazırki gursululuq dövrünü nəzərə alaraq hava durumu ilə bağlı məlumatlara diqqətlə yanaşsınlar, sel-daşqın hadisələrinin olması ehtimalı barədə hidrometeoroloqlar tərəfindən verilən xəbərdarlıqlara ciddi əməl etsinlər. Dağlıq və dağətəyi ərazilərdə sel və daşqın olması ehtimalını nəzərə alaraq vətəndaşlarımızın çayların keçdiyi ərazilərə yaxın yerlərdə sululuğun artdığı müddətdə orada olması tövsiyə edilmir. Çünki çayların məcrasına yaxın ərazilər daim təhlükəli yerlərdir. Çayların məcrasına yaxın, yaxud onun kənarlarında müvəqqəti və ya daimi yerləşməsinlər, piknik üçün bu əraziləri seçməsinlər, mal-qaranın çay məcrası istiqamətinə yönəldilməsinə yol verməsinlər".

İ.İbrahimovanın sözlərinə görə, təəssüf ki, insanlar sel hadisəsinin yaradacağı fəsadların fərqinə varmırlar, təhlükənin ciddiliyini nəzərə almırlar, sel prosesini yaxından izləyirlər, ərazini tərk etmək əvəzinə hətta "selfie" çəkirlər. Düşünmürlər ki, bu, çox təhlükəlidir. Axın hər an istiqamətini dəyişə bilər. Bir daha bildirirəm, xəbərdarlıqlar ciddiyə alınmalı, sel-daşqın hadisəsi başlayan kimi dərhal ərazi tərk edilməlidir.

Nazirlik sözçüsü onu da bildirib ki, küləkli havada uşaqlar nəzarətsiz buraxılmamalı, nəqliyyat vasitələri iri gövdəli ağacların altında saxlanılmamalıdır. Çünki güclü külək nəticəsində hətta sağlam, iri-gövdəli ağacların belə aşma, budaqlarının sınma təhlükəsi var", - deyə qurum rəsmisi qeyd edib.



İ.İbrahimova bildirib ki, hava şəraiti ilə əlaqədar ictimaiyyətə mütəmadi yenilənmiş məlumatlar təqdim olunacaq.



# Mikayıl Cabbarov "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüşdü

***İqtisadiyyat naziri Mikayıl Cabbarov mentorluq proqramı çərçivəsində "Yüksəliş" müsabiqəsinin qalibləri Nərgiz Balakişiyeva və Nihad Mənsimzadə ilə görüşüb.***

"Unikal" xəbər verir ki, nazir bu barədə öz "Facebook" hesabında paylaşım edib.

"Fərdi inkişaf planı üçün faydalı alətlər barədə danışdıq, qalibləri maraqlandıran sualları cavablandırdıq, qazandıqları biliklər və innovativ idarəçilik vərdişlərinin təkmilləşdirilməsi barədə səmərəli müzakirələr apardıq və tövsiyələrimizi verdik", - deyə paylaşımda bildirilib.

# Şuşada ilk beynəlxalq uşaq rəqs festivalı keçirildi

***Şuşada "Heydər Əliyev - türk dünyası birliyinin böyük carçısı" adlı beynəlxalq uşaq rəqs festivalı keçirilib.***

"Unikal" xəbər verir ki, türkdilli dövlətlərin uşaq rəqs qrupları arasında keçirilən festival Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə baş tutub.

Festivalda Prezident Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Baş nazirin müavini Əli Əhmədov, elm və təhsil naziri Emin Əmrullayev, mədəniyyət naziri Adil Kərimli, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev, gənclər və idman nazirinin müavini İndira Hacıyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova və digər qonaqlar iştirak ediblər.

Festivalda Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Azərbaycandan olan 150-yə yaxın məktəblinin ifasında müxtəlif rəqs nömrələri nümayiş etdirilib.

Qeyd edək ki, beynəlxalq rəqs festivalının təşkilində məqsəd uşaq və gəncləri dünyaşöhrətli siyasətçi Heydər Əliyevin türk dünyası ilə bağlı gördüyü işlər haqqında məlumatlandırmaq, türkdilli dövlətlərin gənc nəslinə ölkəmizi tanıtmaq, uşaqları bir-birlərinin milli adət-ənənələri ilə tanış etmək, onlara öz ölkələrinin tarix və mədəniyyətini layiqincə təmsil etmək üçün şərait yaratmaq, eləcə də Şuşa şəhərinin füsunkar gözəlliyini iştirakçılara tanıtmaqdan ibarətdir.

# Son sutkada koronavirusa yoluxanların və peyvənd olunanların sayı

***Azərbaycanda koronavirusa yoluxanların sayı açıqlanıb.***



Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, son sutkada infeksiyaya 15 yeni yoluxma faktı qeydə alınıb.

COVID-19-a yoluxan 16 nəfər sağalıb. İndiyədək ölkədə ümumilikdə 831 849 nəfərin xəstəliyə yoluxması faktı müəyyən edilib, onlardan 821 516 nəfər müalicə olunaraq sağalıb, hazırda 59 aktiv xəstə var. Bu günə qədər 10 274 nəfər vəfat edib.

Məlumata görə, son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 936, bu günə qədər isə ümumilikdə 7 623 270 test icra olunub.

Eyni zamanda ölkədə son sutka ərzində 55 nəfər vaksinasiya olunub.

Azərbaycanda bu günə qədər vurulan vaksinlərin ümumi sayı isə 13 965 701 olub.



## İraqda məhbus həyatı sürmüş 3 qadın Azərbaycana gətirildi - XİN

***Azərbaycan Respublikasının hökuməti tərəfindən aparılmış müvafiq əlaqələndirmə işi, habelə ölkəmizin aidiyyəti dövlət qurumlarının mərhələli və koordinasiyalı tədbirləri nəticəsində, İraq Respublikasında məhbus həyatı sürmüş və hal-hazırda cəza müddəti bitmiş 3 nəfər qadın Azərbaycan Respublikası vətəndaşı ölkəmizə gətirilib.***

XİN-dən "Unikal"a verilən xəbərə görə, növbəti mərhələdə daha 2 nəfər cəza müddəti bitmiş Azərbaycan Respublikası vətəndaşının ölkəmizə gətirilməsi nəzərdə tutulur.

Hazırda, İraq Respublikasında həbsdə saxlanılan Azərbaycan Respublikasının qadın vətəndaşlarının mərhələli şəkildə ölkəmizə gətirilməsi istiqamətində müvafiq işlər davam etdirilməkdədir. Bununla əlaqədar olaraq, İraq Respublikasının aidiyyəti dövlət qurumlarına müvafiq müraciətlər ünvanlanıb.

Qeyd edək ki, Azərbaycan hökuməti tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində indiyə qədər sözügedən qadın vətəndaşlarımızın 288 nəfər övladı Azərbaycana artıq geri gətirilib.

## Naxçıvanda Perinatal Mərkəz yaradıldı

***"Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 17 may tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilib.



Dəyişikliyə görə "Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi" publik hüquqi şəxsin adı dəyişdirilərək "Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəzi" publik hüquqi şəxsi adı ilə əvəz edilib. Eləcə də "Naxçıvan Muxtar Respublikası Perinatal Mərkəz" və yeni yaradılan "Səhiyyənin Təminat Mərkəzi" publik hüquqi şəxsi Səhiyyə Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısına daxil edilib.

Həmçinin, Nazirlər Kabinetinin eyni tarixli digər bir qərarı ilə "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi üzrə müqavilənin Nümunəvi Forması"nda edilmiş dəyişikliyə əsasən publik hüquqi şəxslər üçün vəsaitlərdən istifadə barədə hesabatlar aylıq, rüblük və ilin əvvəlindən artan yekunla iqtisadi təsnifat üzrə təqdim olunduğu halda, artıq rüblük və illik olaraq təqdim olunacaq.

# "Ermənistan hələ də Azərbaycana qarşı revanşist fikirlərdən əl çəkmir"

## Aydın Mirzəzadə: "Azərbaycan daim yeni silahlarla təchiz edilməli, müdafiə sektoruna güclü fikir verməlidir"



***Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, deputat Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, İsrail prezidentinin Azərbaycana səfər etməsinin əhəmiyyətindən, bu səfərdən sonra ölkələrimiz arasında olan hərbi əməkdaşlığın hansı istiqamətdə inkişaf edə biləcəyindən və Azərbaycana qarşı düşmən münasibət bəsləyən ölkələrin hansı nəticələr çıxarmalı olduqlarından danışıb.***

***-Aydın müəllim, mayın 30-da İsrail Prezidenti İsxak Hersoq ölkəmizə səfər edib və bir sıra görüşlər keçirib. Bu səfəri necə qiymətləndirirsiz?***

-İsrail Prezidenti İsxak Hersoqun Azərbaycana səfərini yüksək qiymətləndirirəm. Bu təkcə Azərbaycan üçün deyil, eyni zamanda İsrail üçün də əhəmiyyətli idi. Azərbaycanın dünyanın nüfuzlu, inkişaf etmiş, həyatın bütün sahələri üzrə böyük uğurlar qazanmış ölkəsi ilə əməkdaşlığı daha da genişlənir. İsrail isə islam dünyasının nüfuzlu ölkələrinin biri ilə əlaqələr körpüsünü daha da genişləndirir. İsrail Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdəndir. Azərbaycanda qədimdən yəhudi icması yaşayıb və onların yerli Azərbaycan xalqı ilə yaxşı münasibətləri olub. Heç də təsadüfi deyil ki, bu gün İsraildə Azərbaycandan çıxmış yəhudilər ölkəmiz barəsində ən yüksək fikirlərini bildirirlər. Eyni zamanda onlar Azərbaycanın təbliğində böyük rol oynayırlar. İsrail prezidentinin Azərbaycana səfəri həm ikitərəfli əlaqələri möhkəmləndirməyə, həm də yeni sahələr üzrə əməkdaşlığı genişləndirməyə imkan verəcək. Bu səfər zamanı energetika, səhiyyə sahəsində əməkdaşlıq barədə sazişlər imzalandı. Bu sazişlər iki ölkənin imkanlarını birləşdirməyə, birgə layihələr həyata keçirməyə, bir-birinin təcrübəsini öyrənməyə, hətta üçüncü ölkədə birgə fəaliyyət göstərməyə imkan verəcək. Təsadüfi deyil ki, İsrail prezidentinin Azərbaycana səfərini nəinki Azərbaycan-İsrail, hətta dünya mətbuatı geniş işıqlandırıb və buna yüksək qiymət verib.

***-Azərbaycanın İsraillə müdafiə sənayesi sahəsində uzunmüddətli əməkdaşlığı var. Ölkəmiz İsraildən ən müasir hərbi texnikalar, silah-sursatlar alır. Bu səfərdən sonra hərbi-texniki əməkdaşlıqda hansı yeniliklərin olacağı gözlənilir?***

-Azərbaycan və İsrail arasında müdafiə sahəsində geniş əməkdaşlıq var. Müstəqilliyimizin ilk illərində Azərbaycan Silahlı Qüvvələrinin müasir səviyyədə qurulmasına çox böyük ehtiyac var idi. Nəzərə alsaq ki, müstəqillikdən əvvəl qonşu Ermənistan Azərbaycan ərazisinə iddia edirdi və 1994-cü ilə qədər torpaqlarımızın 20 faizini işğal etdi. Ona görə də bizə mütləq torpaqlarımızı işğaldan azad edəcək və onu müdafiə edə biləcək hərbi gücə malik olmaq lazım idi. Azərbaycan xalqının, rəhbərliyinin buna inamı kifayət qədər möhkəm idi. Ulu öndər Heydər Əliyevin Azərbaycan Silahlı Qüvvələrinin quruculuğunda verdiyi töhfə indi də öz müsbət nəticəsini göstərir. Prezident İlham Əliyev hakimiyyətə gəldiyi gündən ordu quruculuğuna böyük diqqət ayırıb, Azərbaycan ən müasir silah və texnika ilə təchiz edilib. Onların içərisində İsrail istehsalı olan və dünya birliyi tərəfindən yüksək qiymətləndirilən silah-sursatdan geniş istifadə edilir. Bu silahlar Azərbaycanın işğal altında olan torpaqlarının işğaldan azad edilməsində böyük rol oynayıb. Həmin silahlar bu gün sərhədlərimizdə ərazi bütövlüyümüzü qorumağa imkan verir. Əlbəttə, bu hərbi texnikalar, silah-sursatlar Azərbaycanın öz daxili imkanları hesabına alındı. Hərbçilərimiz qısa zamanda həmin silahlardan istifadə etmək təcrübəsini qazandılar. Vətən müharibəsinə qədər hər il keçirilən geniş təlimlər Azərbaycan Silahlı Qüvvələrinin artan gücünü göstərdi. 44 günlük Vətən müharibəsində qəhrəman hərbçilərimiz erməni qoşunlarını Azərbaycan ərazisindən qovdular. Baxmayaraq ki, müharibə bitib, amma yenə də istənilən hərbi təxribata hazır olmalıyıq. Nəzərə alsaq ki, qonşu Ermənistan hələ də Azərbaycana qarşı revanşist fikirlərindən əl çəkmir. Bu baxımdan, Azərbaycan daim yeni silahlarla təchiz edilməli, öz silah arsenalını gücləndirməli, müdafiə sektoruna güclü fikir verməlidir. Bildiyiniz kimi, Azərbaycan həm öz istehsal etdiyi, həm də xarici ölkə istehsalı olan silah-sursatdan istifadə edir. Amma onların arasında İsrail silahları xüsusi yer tutur. Şübhəsiz ki, İsrail prezidentinin Azərbaycana səfəri zamanı hərbi-texniki sahədə də əməkdaşlığın möhkəmləndirilməsi, yeni imkanların nəzərdən keçirilməsi tamamilə mümkün olan məsələdir.

***-İsrail liderinin Azərbaycana səfəri iki ölkə arasında münasibətlərin yeni inkişaf mərhələsinə keçdiyini sübut edir. Azərbaycana qarşı düşmən münasibət bəsləyən ölkələr bundan hansı nəticələr çıxarmalıdır?***

-İsrail-Azərbaycan dostluğu ilk növbədə bu iki ölkəyə lazımdır. Hər iki ölkənin bir-biri ilə dostluğa ehtiyacı var. Təsadüfi deyil ki, İsrail mətbuatı Azərbaycanın İsraildə bir neçə ay bundan əvvəl səfirlik açması xəbərini böyük bir siyasi hadisə kimi qiymətləndirdi. Parlamentdə də bu məsələyə toxunuldu, siyasilər fikirlərini bildirdilər. Dövlət rəsmiləri bu məsələ ilə bağlı xüsusi bəyanatlarla çıxış etdilər. Bu münasibətlər heç də hər hansı bir üçüncü ölkəyə qarşı yönəlməyib. Bu münasibətlər istənilən regionun iki dövləti arasında dostluq üçün yaxşı müsbət nəticədir. Eyni zamanda hansısa xarici qüvvələr Azərbaycan-İsrail münasibətlərini pozmağa çalışsalar, bunun sərt cavabını alacaqlar. Bizim münasibətlər başqa bir ölkəyə yönəlmədiyi kimi, həmin ölkələrin də Azərbaycan-İsrail münasibətlərini pozmağa çalışması qeyri-mümkündür. Azərbaycan və İsrail bu məsələdə dostluqlarını möhkəmləndirmək fikrindədirlər. İki dost və qardaş ölkə arasındakı münasibətlər anti-Azərbaycan qüvvələrinin istəyinə, planlarına qarşı ən yaxşı, güclü cavab hesab edilə bilər.

***Anar Kəlbiyev***

# Turizm oliqarxlarının misli görünməmiş soyğunçuluğu

## Yayın gəlişi ilə turizm obyektlərində qiymətlər "ceyran belinə qalxıb" - Ağlasığmaz rəqəmlər!

***Yay turizm mövsümünün başlanmasına az qalır. Lakin turizm obyektlərindən - hotellərdən, istirahət mərkəzlərindən gələn xəbərlər sözün həqiq mənasında adamın qanını dondurur. Söhbət həmin obyektlərdəki qiymətlərdən gedir. Bu qiymətlər Azərbaycan vətəndaşlarının mütləq əksəriyyətinin cibinə uyğun deyil.***

"Unikal" əməkdaşının araşdırması zamanı məlum olub ki, Azərbaycanın turizm rayonlarında, məsələn, Şəki, Qəbələ, İsmayıllı və Qubada səhər yeməyi daxil olmaqla 5 ulduzlu hotellərdə bir günlük istirahət 380 - 550 manat arasında dəyişir. Nahar və şam yeməyi üçün əlavə vəsait ödəmək lazım gəldiyini, üstəlik, istirahət zonalarındakı restoranlarda təklif edilən menyulərə görə ödənişlərin yüksək olduğunu nəzərə alsaq həmin məbləğin ümumiyyətlə "kəllə-çarxa" çıxdığını görərik.



4 və daha aşağı ulduzlu hotellərdə, istirahət mərkəzlərində də qiymətlər ürəkaçan deyil. Bu obyektlərdə gündəlik istirahət üçün 200-250 manat tələb olunur. Xidmətin və şəraitin qənaətbəxş səviyyədə olmamasına baxmayaraq bu hotellərin, istirahət mərkəzlərinin sözügedən qiymətləri belə sadə vətəndaşlar üçün astronomik həddədir.

Ən acınacaqlısı isə odur ki, günlük kirayə verilən evlərin qiyməti də adamın gözünü qamaşdırır. Turistlər üçün xüsusi hazırlanan, hovuz və digər istirahət-əyləncə imkanlarına malik belə evlərdə 1 gün qalmaq üçün 200 manat ödəniş etmək lazım gəlir. Üstəlik, həmin ödənişə sadəcə dörd divar daxildir. Şəraiti daha zəif olan evlərin 1 günlük qiyməti də az deyil: ən yaxşı halda 100 manat!

Xatırladaq ki, 2023-cü ildə Azərbaycanda proqnozlaşdırılan orta aylıq əməkhaqqı məbləği 898 manatdır. 2022-ci il dekabrın 1-nə olan məlumata görə isə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 829,9 manat təşkil edir.

2023-cü ilin əvvəllərinə olan məlumata görə isə ölkədə pensiyaların orta aylıq məbləği 423 manat, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 456 manatdır.

İstirahət zonalarındakı fantastik qiymətlərdən belə aydın olur ki, yol və s. xərcləri də nəzərə alsaq sıravi vətəndaşların 1 aylıq maaşları ailə üzvləri ilə birgə 2-3 gün dincəlməyə ancaq imkan verir. Təqaüdçülər üçün isə hətta bu da əlçatmazdır.

Bir sözlə tamamilə anormal vəziyyət yaranıb - görünən odur ki, Azərbaycan insanı ölkənin təbii gözəlliklərindən faydalanmaq imkanını faktiki olaraq itirib, onun üçün ilboyu çalışdıqdan sonra 3-5 gün normal şəraitdə dincəlmək isə tamamilə mümkünsüzə çevrilib. Vətəndaşlarımız turizm zonalarında bir neçə gün istirahət etməkdən ötrü, az qala, 1-2 ay ac qalmalı, başqa heç nəyə xərc çəkməməlidirlər.

Yaranmış anormallığın aradan qaldırılmasında isə məsul qurum - Dövlət Turizm Agentliyi "ya vəlvələdən, ya zəlzələdən" acizlik nümayiş etdirir. İş o yerə çatıb ki, yalnız yerli vətəndaşlar deyil, xaricdən gələn turistlər belə Azərbaycanda yüksək qiymətlərdən, bunun qarşılığında isə aşağı xidmətdən gileylidirlər. Bunu biz demirik, Dövlət Statistika Komitəsi deyir - 2022-ci ildə Azərbaycana gələn hər 7 turistdən biri ölkədən narazı gedib! Narazılığın ən mühüm elementlərindən biri isə turizm oliqarxlarının müəyyənləşdirdiyi fantastik qiymətlər olub. Onlardan həmin qiymətləri hansı məntiqlə müəyyənləşdirdiklərini soruşmalı olan Dövlət Turizm Agentliyi isə öz ampulasına sadiqdir: faktiki olaraq soyğunçuluq xarakteri alan, üstəlik, xidmətin keyfiyyəti ilə tərs-mütənasib olan qiymət siyasəti ilə bağlı bu qurumun əlindən ancaq bir iş gəlir: susmaq və seyr etmək!

Belədə vətəndaş haqlı olaraq düşünür: görünür, turizm mövsümlərindən, bayram tətillərindən daha çox qazanmaq istəyən yalnız hotellər, restoranlar, istirahət mərkəzləri deyil, həm də adıçəkilən qurumun özüdür.

Əks təqdirdə izahat verilməlidir: təxminən 830 manat orta aylıq əmək haqqı ilə, bu məbləğin yarısı qədər orta aylıq pensiya ilə Azərbaycan vətəndaşları gündəlik 300-500 manata necə istirahət eməlidir? Əgər bazar iqtisadiyyatının prinsiplərindən danışır və qiyməti tələb-təklifin müəyyənləşdirdiyini deyiriksə, onda soruşmağa ayıb olmasın: turizm oliqarxları Azərbaycan əhalisinin 85-90 faizi üçün əlçatmaz görünən qiymətləri nəyin əsasında, hansı məntiqlə müəyyənləşdirirlər? Ümid xarici turistlərədirsə, yenə də anormal situasiya meydana çıxır - hətta rəsmi statistika belə, onların da qiymətlərdən narazılığını ortaya qoyur, bu gedişlə ölkə xaricindən gələn turist sayı da kəskin azalacaq.

Elə isə turizm sektorundakı soyğunçu qiymət siyasəti kimə, niyə lazımdır? Azərbaycanlıları istirahət imkanından, dövlət büdcəsini isə milyonlarla manatlıq gəlirdən məhrum etmək üçünmü? Doğrudanmı, bir ovuc oliqarxın "qaz vurub qazan doldurması" xalqın istirahət hüququndan da, büdcəyə böyük pulların daxil olmasından da önəmlidir?!

***Toğrul Əliyev***

# Kilsələrin, sinaqoqların qapısı hər zaman açıqdır - Spiker



***Azərbaycan multikulturalizminin banisi görkəmli lider Heydər Əliyev olub. Onun bizlərə əmanət qoyduğu multikulturalizm bu gün də davam etdirilir.***

Bu barədə Milli Məclisin sədri Sahibə Qafarovanın "Heydər Əliyev müasir müstəqil Azərbaycanın memarı və Azərbaycan multikulturalizminin banisidir" adlı beynəlxalq konfransa göndərdiyi məktubda qeyd edilib.

"Bizim ölkədə məscidlərin, kilsələrin, sinaqoqların qapısı hər zaman açıqdır. Azərbaycanda müxtəlif ölkələrin nümayəndələri yaşayır. Onlar Qarabağ müharibəsi zamanı ölkənin ərazi bütövlüyünün təmin edilməsində yüksək səviyyədə iştirak ediblər. İndi də Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında yaxından iştirak edirlər. Azərbaycan hər zaman ölkədə multikulturalizmin təmin edilməsinə diqqət yetirib və yetirəcək", - deyə spiker vurğulayıb.

# "Hansı qanun qəbul edilirsə, fond yaradılır" - Vahid Əhmədov



***"Son vaxtlar Azərbaycanda mod düşüb. Hansı qanun qəbul edilirsə, fond yaradılır".***

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə keçirilən komitə iclasında deputat Vahid Əhmədov deyib. O bildirib ki, daha sonra dövlət büdcəsindən müəyyən vəsait köçürülür ki, fond fəaliyyət göstərsin: "İndi Utilizasiya Fondunun yaradılması nəyə lazımdır? Bu fondun vəsaiti necə xərclənəcək?"

***Anar Kəlbiyev***

# "Avtomobillərin 60 faizinin istismar müddəti 20 ildən artıqdır" - Şöbə rəisi

***"Azərbaycanda avtomobillərin böyük əksəriyyəti köhnə avtomobillərdir".***

"Unikal" xəbər verir ki, bunu Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi Elvin Hüseynzadə Milli Məclisdə komitə iclasında deyib.

O bildirib ki, Azərbaycanda 1.7 milyondan çox avtomobil var. O əlavə edib ki, həmin avtomobillərin 60-65 faizinin istehsal müddəti 20 ildən artıqdır.

# MEDİA çap və onlayn mətbuat üçün müsabiqə elan etdi



***Medianın İnkişafı Agentliyi çap və onlayn media subyektlərinə dəstək üçün müsabiqə elan edir.***

Bu barədə "Unikal"a MEDİA-dan bildirilib. Media Reyestrinə daxil edilmiş ictimai-siyasi qəzetlər müsabiqədə iştirak edə bilərlər. Müsabiqədə iştirak etmək üçün müraciət və ona əlavə edilən sənədlər elektron formada mib.media.gov.az portalı vasitəsilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinə təqdim edilir.

Müsabiqənin yekununda qalib elan edilmiş qəzet redaksiyaları ilə Agentlik arasında maliyyə yardımının göstərilməsinə dair müqavilə imzalanır və 6 (altı) ay müddətində qüvvədə olur.

Həftədə bir nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə aylıq 5000 manat, həftədə beş nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə aylıq 15000 min manat, qəzetin eyniadlı veb-saytına isə aylıq 3000 manat (əsaslı yenilənmə niyyəti ifadə edilmişdirsə, ilk ay 5000 manat olmaqla) məbləğində maliyyə yardımı göstərilir.

# "Çörəyin, avtomobilin qiyməti qalxan kimi..." - Əli Məsimli



*"Dünya elektron avtomobilə keçir. Azərbaycanda söhbət avtomobil yığmaqdan gedirsə, ən asan yığılan elektron avtomobillərdir".*

"Unikal" xəbər verir ki, bunu Milli Məclisdə komitə iclasında deputat Əli Məsimli deyib.

"Dünyanın hansı ölkəsinin adını çəkmək olar ki, o ölkəyə gətirilən avtomobildən alınan rüsumlar və s. üst-üstə yığılanda onun gömrük gəlirinin 3-də iki hissəsinə, bəzən hardasa 80-90 faizinə bərabər olsun. Həddən artıq insafsız göstəricilərdən alınan vəsaitin bir hissəsinin Utilizasiya Fonduna keçirilməsini, ümumiyyətlə, vətəndaşlardan bu sahədə heç bir vəsaitin alınmaması varinatını təklif edirəm", - deyə deputat bildirib.

Ə.Məsimli qeyd edib ki, o qədər ağır rüsumlardan sonra vətəndaş əlavə nə isə ödəyəcəksə, bu qiymətlərin artmasına təsir göstərəcək: "Çörəyin, avtomobilin qiyməti qalxan kimi, bu, psixoloji cəhətdən başqa məhsulların qiymətinin qalxmasına təsir göstərir".

# Dövlət Komitəsinin sədri ilə maraqlı debüt

***1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində idman uğurları olan bir qrup məcburi köçkün məktəbli ilə görüş keçirilib.***



"Unikal" xəbər verir ki, komitə sədri Rövşən Rzayev uşaqları təhsildə və idmanda qazandıqları nailiyyətlərə görə təbrik edib, onların ölkəmizin layiqli vətəndaşları olacaqlarına və vətənə daim fayda verəcəklərinə əminliyini ifadə edib.

Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyev hər zaman uşaq və gənclərin fiziki və mənəvi sağlamlığına xüsusi diqqət və qayğı göstərib, onların milli-mənəvi dəyərlərə sədaqət və yüksək vətənpərvərlik ruhunda böyüməsinə mühüm əhəmiyyət verib. Bu siyasi xətti Prezident İlham Əliyev davam etdirir, ölkəmizdə gənc nəslin hərtərəfli inkişafı, o cümlədən bədən tərbiyəsi və idmanla fəal məşğul olması üçün hər cür şərait yaradılıb. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyətində də uşaq və gənclərin təhsili, sağlamlığı, mədəni inkişafı ilə bağlı məsələlər xüsusi yer tutur. Minnətdarlıq hissi ilə bir daha xatırladılıb ki, məcburi köçkün ailələrin övladları da bu diqqət və qayğıdan geniş şəkildə bəhrələnirlər.

Görüşdə məcburi köçkünlərin dogma yurda qayıdışından, işğaldan azad edilmiş ərazilərdə gənc nəslin təhsili və idmanla məşğul olması üçün yaradılacaq şəraitdən də bəhs olunub. Yeni salınan şəhər və kəndlərimizdə yeni məktəblərin tikildiyi, idman qurğularının yaradıldığı diqqətə çatdırılıb.

Görüşdə iştirak edən uşaqlar - Dövlət Komitəsinin Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə məcburi köçkün məktəblilər arasında keçirdiyi şahmat turnirinin qalibləri və ciu-citsu idman növü üzrə yarışda uğur qazanmış yeniyetmələr əldə etdikləri nailiyyətlərdən danışıb, dogma yurda qayıdacaqları günü səbirsizliklə gözlədiklərini bildiriblər. Dövlət komitəsinin sədri ilə məcburi köçkün şagirdlərin arzu və istəkləri ilə maraqlanıb, onların təhsildə və idmanda daha böyük uğurlar qazanmasına və şəxsi inkişaflarına daim dəstək göstəriləcəyini deyib.

Görüşün sonunda Rövşən Rzayev Laçın məktəblisi, şahmat turnirin qalibi Bəyaz Quliyeva şahmat taxtası arxasında əyləşiblər. Blits üslubunda keçən oyun heç-heçə yekunlaşıb. Sonda Dövlət Komitəsinin sədri və məcburi köçkün şagirdlər xatirə şəkli çəkdiriblər.

# Hacıbala Abutalıbovla Ziya Məmmədov 10 ildir küsülü imiş

## Sabiq nazirlə keçmiş mer arasında incikliyin pərdəarxasında nələr var?

***Azərbaycanın sabiq nəqliyyat naziri Ziya Məmmədovla Bakı Şəhər İcra Hakimiyyətinin keçmiş başçısı Hacıbala Abutalıbov 10 ildən çoxdur danışmırlar. Bu müddətdə onlar istər vəzifədə ikən müxtəlif toplantılarda, istərsə də vəzifələrini itirdikdən sonra çoxsaylı tədbirlərdə, mərasimlərdə qarşı-qarşıya gəlsələr də ən yaxşı halda quruca salamlaşmaqla kifayətləniblər.***

Bəs iki eks-məmur arasında bu barışmaz küslülüyün arxasında nə və ya nələr dayanır?

İddialar bu yöndədir ki, Məmmədovla Abutalıbov arasında narazılıqlar 2010-cu illərin əvvəlində meydana çıxıb. Narazılığın birinci pərdəsi Bakı-Sumqayıt və Sumqayıt-Bakı istiqamətində avtomobil magistralında yaranan tıxacların aradan qaldırılması üçün salınan yolla bağlıdır. Belə ki, layihənin icrasına başlanmazdan öncə ölkə rəhbərliyinə məruzə edilib. Keçmiş nəqliyyat naziri salınacaq yolun tikintisi, tikinti zolağına düşən obyektlərin, mühəndis xətlərinin və tikililərin köçürülməsi istiqamətində görüləcək tədbirlər haqda məlumat verib. Tikinti zolağına düşən obyektlər sırasında isə H.Abutalıbova məxsus 5 hektar torpaq sahəsi də olub. Məsələdən xəbər tutan sabiq mer dərhal hərəkətə keçib; nəticədə plan dəyişdirilib. Ona aydın olub ki, ilkin sənədlərdə onun torpaq sahəsi tikinti zolağına düşməli deyilmiş, başqa bir ərazidən keçməli imiş. H.Abutalıbov yolun istiqamətinin dəyişdirilməsinin səbəbi ilə maraqlanıb. Axırda öyrənib ki, ilkin sənədlərə görə yol Ziya Məmmədovun yaxınlıqda yerləşən obyektlərinin ərazisindən keçməli imiş. Bu səbəbdən də keçmiş nazir layihədə dəyişiklik edib.

Nəticədə Abutalıbov sabiq nazirə acıqlanıb, bütün gücünü işə salaraq torpaq sahəsini xilas edə bilib. Belə ki, yolun ilkin eskiz üzrə çəkilməsinə nail olub. Beləcə, BŞİH-in keçmiş rəhbəri ilə sabiq nəqliyyat naziri arasında ciddi narazılıq yaranıb. Narazılıq onların küsüşməsi ilə yekunlaşıb.

Düzdür, yol ilkin layihə üzrə tikilsəydi Abutalıbova məxsus torpaq sahəsinə kompensasiya ödəniləcəkmiş. Lakin sabiq mer işi özü üçün nüfuz və prinsip məsələsinə çevirib, elə ona görə də layihəni dəyişdirməyə müvəffəq olub. Z.Məmmədov isə bu məğlubiyyəti həzm edə bilməsə də, əlindən Hacıbala müəllimlə küsüşməkdən başqa heç nə gəlməyib.

İki eks-məmur arasında ixtilafın ikinci pərdəsi isə 2010-cu illərin ortalarında açılıb: ilk "pərdə"ni uduzan Ziya Məmmədov sabiq merdən qisas almaq fikrinə düşüb. Söhbət Abutalıbovun





özünə yeni biznes yaratmaq istəməsinə qarşı eks nazirin reaksiyasından gedir. Belə ki, 2013-cü ildə sabiq paytaxt meri Bakının müəyyən olunmuş ərazilərində parkomatlar quraşdırdı və sürücülərə burada maşın saxlamağa icazə verildi. Fransadan gətirilmiş xüsusi parkomatları şəhərin əksər mərkəzi küçələrində görmək mümkün idi. O vaxtadək sürücülərin 20-30 qəpiyə istifadə etdikləri xidmət 30 dəqiqə üçün 50 qəpik, hər bir saat üçün isə 1 manata qalxmışdı. Yığılan pullar Abutalıbovun cibinə gedirdi.

İşi belə görən Ziya Məmmədov dərhal hərəkətə keçdi. Abutalıbovun parkomat biznesinin böyük çətinliklər yaratdığı, bu parkomatlar ucbatından parklanan nəqliyyat vasitələrinin, az qala, avtobusların içinə girdiyi, onların fəaliyyətinə imkan verilmədiyi açıqlandı. Hətta həmin vaxt Nəqliyyat Nazirliyinin rəsmiləri bu barədə mediaya açıq şəkildə danışırdılar. Bununla da Ziya Məmmədov belə bir mesaj verirdi: "Bakıdakı tıxac probleminin günahkarı mən deyiləm, Abutalıbovdur!"

Lakin iki eks-məmur arasındakı ixtilafın ikinci pərdəsində də qalibin sabiq mer olduğunu söyləmək mümkündür. Çünki proseslərin sonrakı gedişində Ziya Məmmədovun səlahiyyətləri tədricən əlindən alındı, o, paytaxt nəqliyyatı üzərində nəzarəti demək olar ki, itirdi. Məsələn, Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyində "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradıldı, nəticədə paytaxtda sərnişindaşıma işi keçmiş nəqliyyat nazirinin nəzarətindən çıxdı. Üstəlik, paytaxtda yolların təmir və tikintisində də eksmer sabiq nazirin "çörəyinə bais olmağı" bacardı. Sonda da Ziya müəllim nazir postunu tamamilə itirdi, Hacıbala müəllim isə mer postundan kənarlaşdırılsa da, baş nazirin müavini postuna gətirildi və həmin vəzifədə 1 il qaldı, oradan təqaüdə yollandı.

Beləliklə, Z.Məmmədovla H.Abutalıbov arasında uzun müddət davam edən qovğa onlar vəzifəsiz qaldıqdan sonra da küsülülük şəklində davam edir. İki eks-məmur hər hansı mərasimdə qarşı-qarşıya gəldikdə bir-birlərinin yanından ya sükutla keçir, ya da başlarını yüngülvari tərpədib quruca salamlaşırlar. Bundan sonra barışacaqlarına isə onların ətrafındakılardan kimsə ehtimal vermir...

***Toğrul Əliyev***

# Məmur şirkətlərinin yeni oyunu...

## Onlar vətəndaşlardan pul qoparmaq üçün hədə-qorxu yolu seçiblər

***Sosial şəbəkələrdə yayılan məlumatlara görə, son günlər daşınmaz əmlakın icbari sığortası ilə bağlı vətəndaşlara xəbərdarlıq edilməyə başlanılıb. Bu məqsədlə sığorta şirkətləri tərəfindən mənzillərə bildirişlərin göndərildiyi deyilir.***

Maraqlıdır ki, bu cür bildirişlər təkcə çıxarışlı mənzillərə yox, həm də sənədsiz evlərə göndərilir.

Bir sıra yerli KİV-lər isə yazır ki, iyunun 1-dən yeni elektron sistem işə düşdükdən sonra evini sığorta etdirməyən vətəndaşlar cərimələnə bilərlər. Fiziki şəxslərə 30 manat, vəzifəli şəxslərə 80 manat, hüquqi şəxslərə isə 200 manat cərimə tətbiq ediləcəyi iddia olunur.



Mənzillərin icbari sığorta məbləğinə gəlincə, bu tarifin regionlar üzrə müəyyən olunduğu bildirilir. Məsələn, Bakı şəhərində yerləşən yaşayış obyektinin icbari əmlak sığortası 50 manat, Gəncə, Sumqayıt və Naxçıvanda 40 manat, digər rayonlarda isə 30 manatdır. Sığorta təminatı yəni, hər hansı bədbəxt hadisə zamanı vətəndaşa ödəniləcək sığorta məbləği Gəncə, Sumqayıt və Naxçıvanda 20 min manata qədər, Bakıda və digər şəhərlərdə yerləşən yaşayış obyektlərində isə 25 min manatdır.

Məlumat üçün qeyd edək ki, İcbari sığorta haqqında 2011-ci il 24 iyun tarixli 165-IVQ nömrəli Qanunun 35.2. maddəsinə əsasən hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış evləri və binalarının, mənzillərin, habelə dövlət əmlakının sığortası icbaridir. Dövlət qeydiyyatına alınmış daşınmaz əmlak dedikdə, qarajlar, mağazalar, evlər, mənzillər, obyektlər nəzərdə tutulur. Sənədi olmayan yaşayış evlərində isə sığorta məcburi deyil.

Qeyd edək ki, daşınmaz əmlakın icbari sığortalanması və buna görə cərimə tətbiqi vətəndaşlar tərəfindən böyük narazılıqla qarşılanıb. Əksər vətəndaşlar hesab edirlər ki, özəl mülk məcburi yox, yalnız könüllülük prinsipi əsasında sığortalanmalıdır.

Xatırladaq ki, bu mövzu daha öncə də sığorta şirkətlərinin "tələbi" əsasında zaman-zaman mətbuatda gündəmə gətirilməyə çalışılıb. Məsələn, 2019-2020-ci illərdə də iddia olunurdu ki, əmlakını sığortalamayan vətəndaşlar cərimə olunacaq və guya bu cəriməni 20 gün ərzində ödəməyəcəklər halda növbəti dəfə cərimə olunacaqlar. Həmin vaxt bütün bu söz-söhbətlər koronavirus pandemiyasının ortaya çıxması ilə birlikdə gözdən itmişdi...

Mövzu ilə bağlı mediaya danışan ekspertlərin açıqlamalarında isə kifayət qədər ilginc məqamlar var. Məsələn, Azərbaycan Sığortaçılar Assosiasiyasının ekspert qrupunun üzvü İlkin Nəcəfov "azpolitika.info"-ya bildirib ki, 1 iyun tarixindən vətəndaşların cərimə olunacaqlarıyla bağlı rəsmi məlumat yoxdur:"Rəsmi qurumlar belə bir məlumat paylaşmayıblar. Sığorta şirkətləri tərəfindən mənzillərə göndərilən bildirişlərə gəlincə, sığorta şirkəti tərəfindən mənzilə rəsmi bildiriş göndərilmir. Çünki sığorta şirkətlərinin belə bir səlahiyyəti yoxdur. Digər tərəfdən, sığorta şirkəti vətəndaşa xəbərdarlıq edə və ya hansısa formada hədə-qorxu gələ bilməz. Sığorta şirkətləri ən yaxşı halda vətəndaşlar arasında təbliğat işi apara, məhsulunu təqdim edə bilər".

İqtisadçı ekspert Samir Əliyev isə bildirib ki, birdən-birə bu məsələnin yada düşməsində yeni qazanc mənbəyi əldə etməyə çalışan sığorta şirkətlərinin xidmətləri yüksəkdir: "Yaşayış evlərinin icbari sığortası heç də bütün ölkələrdə tətbiq edilmir. Əksər ölkələrdə əmlakın sığortası könüllüdür... Proseslərdən məlumatsız insanlar nə edəcəklərini bilmirlər. Sığorta şirkətləri camaatı psixoloji təzyiq altında saxlayırlar. Ona görə də Mərkəzi Bank bu məsələyə təcili müdaxilə etməlidir. Çünki, sığorta şirkətlərinin fəaliyyəti artıq bu quruma tapşırılıb ".

Xatırladaq ki, oxşar məsələ 2020-ci ildə də yenə süni şəkildə gündəmə gətirilmişdi. Həmin vaxt da ekspertlər bu dediqodulara sərt reaksiya vermişdilər. Məsələn, iqtisadçı Natiq Cəfərli bildirmişdi ki, əhali arasında yaranan ajiotajın səbəbkarı sığorta şirkətləridir: "Sığorta şirkətləri bilərəkdən ajiotaj yaradaraq, əhalinin daşınmaz əmlakını sığortaya cəlb etmək niyyəti güdür, əlavə gəlir mənbəyi əldə etməyə çalışırlar. Bu qanun çoxdan qəbul olunub, amma tətbiqilə bağlı ciddi problemlər var. Çünki ölkədə 650-700 min daşınmaz əmlakın sənədi yoxdur..."

Qeyd edək ki, ittiham hədəfinə çevrilən sığorta şirkətlərindən hələlik bu barədə hər hansı mövqe yoxdur. Belə çıxır ki, onlar əhalidə ciddi narazılıq yaradan şayiələr ortaya ataraq bir kənara çəkiliblər və əvvəlki illərdə olduğu kimi süni şəkildə gündəmə gətirdikləri məsələ sayəsində böyük pullar qazanacaqlarına ümid edirlər.

Onu da deyək ki, Azərbaycanda əksər sığorta şirkətlərinin bu və ya digər dərəcədə məmurlara bağlılığı sirr deyil. Bir sıra oliqarxların, vəzifəli şəxslərin sığorta bazarında ciddi mövqeləri var.

***Sənan Mirzə***

# Azərbaycanda 391 uşaq övladlığa götürülüb



***Azərbaycanda 2019-cu ildən bu yana 391 uşaq övladlığa götürülüb.***

Bu barədə "Unikal"a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib.

Qeyd olunub ki, övladlığagötürmə üzrə idarəetmə 1 noyabr 2019-cu il tarixindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirir.

Bu sahədə müasir və şəffaf idarəetmə modeli yaradılaraq, övladlığagötürmə üzrə xidmətlər də elektronlaşdırılıb. Həmin vaxtdan 196-sı oğlan, qalanı qız olmaqla 391 uşaq övladlığa götürülüb.

Reinteqrasiya tədbirləri nəticəsində isə 287 uşaq müəssisələrdən öz ailələrinə geri qaytarılıb.

# Azərbaycanda şagirdlərin yay tətili qısaldıla bilər?



***Elm və Təhsil naziri Emin Əmrullayev yay tətilinin qısaldılmasını təklf edib. Nazir deyib ki, tədris ili nə qədər uzun olarsa, uşaqların gələcəyi üçün yaxşı olar. Ekspertlər hesab edir ki, təhsil müddətinin uzadılması indiki halda doğru addım olmaz.***

"Unikal" xəbər verir ki, təhsil eksperti Elçin Əfəndi arb-yə bildirib ki, DİM tərəfindən qəbul imtahanlarının nəticələrinin elan olunması, tələbələrin yerləşdirilməsi sentyabr ayının 15-i və ya sonuna təsadüf edir. Belə olan halda dərslər sentyabrın 1-də başlayacaqsa, bu proses yekunlaşmalıdır.

Deputat Ceyhun Məmmədov isə qeyd edib ki, may ayının sonundan hamı tətil və tətilə getmək barədə düşünür. İyun ayında uzadılan 15 gün səmərəsiz gedir.

# Azərbaycanda bu şəxslər 4 min manat cərimələnəcək



***Nəqliyyat vasitəsi utilizasiya edilmiş şəxs yeni avtomobil alarkən ona güzəşt tətbiq etməyən satıcı cərimələnəcək.***

"Unikal" xəbər verir ki, bu, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Layihəyə əsasən, nəqliyyat vasitəsinin utilizasiyaya verilməsi barədə təsdiqedici sənəd əsasında yeni istehsal olunmuş nəqliyyat vasitəsinə güzəştin tətbiqindən nəqliyyat vasitələrinin satıcısı tərəfindən imtina edilməsinə görə 4000 manat məbləğində cərimə ediləcək.

Eyni zamanda, layihəyə görə, "Tullantılar haqqında" Qanunda nəzərdə tutulan qaydada verilən təsdiqedici sənədlərin nəqliyyat vasitələrinin satıcısı tərəfindən uçotunun aparılmamasına, yaxud təsdiqedici sənədlər barədə yazılı məlumatın nəqliyyat vasitələrinin utilizasiyası üzrə operatora vaxtında verilməməsinə görə 500 manat məbləğində cərimə olunacaq.

Həmçinin utilizasiya edilmiş nəqliyyat vasitələrindən əldə edilən materialların və əşyaların ehtiyat hissələrinin emalı və satışı ilə məşğul olan sahibkarlıq subyektlərinə satılması barədə utilizator tərəfindən nəqliyyat vasitələrinin utilizasiyası üzrə operatora Tullantılar haqqında" qanunda nəzərdə tutulan qaydada və müddətdə yazılı məlumatın verilməməsinə görə vəzifəli şəxslər 300 manat məbləğində, hüquqi şəxslər 600 manat məbləğində cərimə olunacaqlar.

Qeyd edək ki, bu qanun layihəsi qəbul olunacağı təqdirdə 2024-cü ilin 1 sentyabr tarixindən qüvvəyə minəcək.

# Maşınların qiymәti bahalaşa bilәr - Yeni prosesdәn gözlәntilәr...



***Bu gün Milli Məclisdə keçirilən komitə iclasında yenidən avtomobillərin utilizasiyası prosesi müzakirə edilib.***

Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi Elvin Hüseynzadə iclas zamanı deyib ki, Azərbaycanda 1 milyon 700 mindən çox avtomobil var və həmin nəqliyyat vasitələrinin 60-65 faizinin istehsal müddəti 20 ildən artıqdır.

Deputatlar isə avtomobillərin utilizasiyasının çox ciddi iqtisadi proses olduğunu bildiriblər.

Məsələ ilə bağlı “Unikal”a açıqlama verən iqtisadçı ekspert Natiq Cəfərli isə qeyd edib ki, utilizasiya ilə bağlı qərar verən dövlətlər avtomobil istehsal edən ölkələr olur:

“Əsasən bu proses Avropa ölkələrində aparılır, hansı ki, həmin ölkələrdə avtomobil istehsalı var. Rusiya bir neçə il əvvəl buna bənzər qərar verdi. Türkiyədə də utilizasiya ilə bağlı qərarlar verilib. Orada 11 böyük avtomobil şirkətinin zavodları var.

Utilizasiyanın mənası ondan ibarətdir ki, dövlət köhnə maşınların əvəzində vətəndaşlara pul və ya sertifikat verir. Həmin sertifikatlara uyğun olaraq proqram hazırlanır. Beləliklə, vətəndaşlar həmin proqram vasitəsilə ölkə ərazisində istehsal olunan yeni avtomobilləri əldə etmək imkanı qazanırlar.

Azərbaycanda isə avtomobil istehsalı yoxdur. Yalnız çox az tərkibdə avtomobillərin yığılması mövcuddur. Bunu da istehsal hesab etmək olmaz. Utilizasiya ilə bağlı qərar veriləndə bütün bu nüanslar nəzərə alınmalıdır. Sözügedən sertifikatların və pul məbləğlərinin vətəndaşa verilməsi ilə bərabər onlara həmin məbləğlə məhz avtomobil almaq üçün şərait yaradılmalıdır. Utilizasiya üçün ayrılmış vəsaitin vətəndaş tərəfindən digər məqsədlərdən ötrü istifadə olunmaması üçün bu məsələyə də nəzarət etmək lazımdır.

Yerli istehsal olmadığı üçün, dövlət tərəfindən yalnız köhnə avtomobillərin alınması ilə bağlı proqram hazırlamaq olar. Bunlardan da əvvəl, hökumət avtomobil parkının yenilənməsi üçün bəzi təşviqedici addımlar atmalıdır. Son illərdə buna uyğun bəzi addımlar atıldı. Son 3 ilin istehsalı olan elektromobillərin və hibrid avtomobillərinə bəzi güzəştlər tətbiq olundu, amma bu yetərli deyil. Birincisi, həmin güzəştlərin son 3 ilin istehsalı olan avtomobillərə şamil edilməsi yanlışdır. Bu ən azı 8 ilə qədər olmalıdır. Bunun ardınca utilizasiya ilə bağlı qərar qəbul olunsa, effektiv ola bilər.

Sadə dillə desək, misal olaraq, vətəndaşın köhnə bir avtomobili var. Dövlət ona 2 min manat qiymət qoyur. Vətəndaş isə həmin 2 min manatı ölkəyə yeni avtomobil gətirərkən onun gömrük vergi xərclərini ödəyərkən istifadə edə bilir. Belə yanaşmalar olsa, ölkənin avtomobil parkının yenilənməsi mümkün olar”, - deyə o bildirib.

İqtisadçı ekspert əsasən fermerlərə məxsus olan və regionlardan paytaxta yük daşıyan köhnə avtomobillərin utilizasiya prosesinə necə qoşulacağından da danışıb:

“Biz rayonlara səfər edən zaman fermerlərin mer-meyvə yüklədiyi, təhlükəsizliklə bağlı ciddi problemləri olan köhnə maşınları görürük. Onları da anlamaq lazımdır, çünki həmin insanların çörəyi bundan çıxır.

Türkiyədə buna uyğun yaxşı bir proqram hazırlanmışdı. Bildiyiniz kimi, onların xırda yükləri daşıyan “Fiat” markalı avtomobilləri var və il ərzində təqribən 80-90 min avtomobil istehsal olunur. Qardaş Türkiyə ilə də bu mövzuda anlaşmaq olar ki, sözügedən avtomobilləri Azərbaycana daha aşağı qiymətə idxal etmək mümkün olsun. Həmin avtomobillərin fermerlərə uzunmüddətli faizsiz kreditlərlə satılması da mümkün ola bilər. Hər bir halda çıxış yolu var”.

Natiq Cəfərli həmçinin avtomobillərin utilizasiyasının daxili bazarda maşınların qiymətlərinin bahalaşmasına gətirib çıxaracağına dair fikirlərə də münasibət bildirib:

“Bütün bunlar qəbul ediləcək qərarlardan və onların icrasından asılı olacaq. Həmin qərarların tətbiqindən sonra qiymətlər kəskin şəkildə bahalaşa da bilər. Eyni zamanda elə düşünülmüş addımlar da atmaq olar ki, nəticədə avtomobillərin qiyməti ucuzlaşa da bilər. Məsələn, son 8 ilin istehsalı olan avtomobillərə gömrük və vergi sahəsində güzəştlər tətbiq etmək olar”, - deyə ekspert bildirib.

***Murad İbrahimli***

# Abel Məhərrəmovun ən gəlirli 2 obyekti əlindən çıxıb

## Sabiq rektor bəzi əmlaklarını da satışa çıxardığı deyilir

***Bakı Dövlət universitetinin (BDU) sabiq rektoru Abel Məhərrəmovun ən gəlirli 2 obyektini satdığı iddia edilir.***

Bildirildiyinə görə, bu obyektlərdən biri ”El Faro hotel Nabran” ailəvi istirahət mərkəzidir. 200 hektar ərazidə 61 milyon manat dəyəri olan həmin istirahət mərkəzini Məhərrəmov vaxtilə qızı İzabellanın adına qeydiyyatdan keçiribmiş. İstirahət mərkəzi fantastik qiymətləri ilə seçilirdi.



Sabiq rektorun əlindən çıxan digər obyektin isə ”Sahil” ticarət mərkəzindəki ən bahalı mağazalardan biri olduğu deyilir. Söhbət İtaliya-Türkiyə istehsalı olan və brend kişi kostyumlarının satışını həyata keçirən ”Ramsey” mağazasından gedir.

İddialar o yöndədir ki, A.Məhərrəmov daha bir neçə əmlakını da satışa çıxarmaq barədə düşünür. Bunların sırasında Bakıda ”Elmlər Akademiyası” metrostansiyası yaxınlığında, dəyəri təxminən 23 milyon manat məbləğində qiymətləndirilən ”İzabella” şadlıq sarayıdır. Sabiq rektorun qızının adını daşıyan həmin şadlıq sarayının son zamanlar ciddi şəkildə müştəri qıtlığı yaşadığı deyilir.

Bundan başqa, sabiq rektorun Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) yaxınlığında, ”milyonçular məhəlləsi” adlanan ərazidəki villasını da satmaq fikrində olduğu söylənilir. Sabiq rektor BDU rəhbərliyindən getdikdən sonra bu villada, demək olar, qalmır. O, vaxtının əsas hissəsini N.Nərimanov heykəlinin yanında dəyəri 1 milyon manatdan yüksək olan mənzildə və Şüvəlan qəsəbəsindəki mülkündə keçirir. Bu səbəbdən də AMEA yaxınlığındakı villanın xərclərindən qurtulmaq niyyətindədir. İddialara görə, sözügedən mülkün qiyməti 7 milyon manatdan çoxdur.

Bəs Abel müəllimin xüsusilə biznes obyektlərini satdığına dair deyilənlər doğrudursa, bunun səbəbi nədir?

Ortada bir neçə versiya dolaşır.

Həmin versiyalardan biri belədir ki, keçmiş rektor biznesini əvvəlki qaydada idarə etməkdə, onu nəzarətdə saxlamağa çətinlik çəkir, odur ki, gəlir mənbələrini komplektləşdirmək qərarına gəlib. Digər versiya isə ondan ibarətdir ki, A.Məhərrəmov vəzifədən azad edildikdən sonra barəsindəki çoxsaylı korrupsiya iddialarından sığortalanmaq üçün xeyli ”tərləmək” məcburiyyətində qalıb. Yaxud, bu korrupsiya iddialarının KİV-də və ictimaiyyət arasında söylənilən miqyasda olmadığını göstərmək üçün sərvətinin önəmli hissəsindən qurtulmaq yolunu tutub.

Xatırladaq ki, A.Məhərrəmov 2018-ci ilin noyabrında Bakı Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilib. O, 1999-cu ilin yanvarın 11-dən həmin tarixədək bu postu tuturdu. Bundan əvvəl isə Məhərrəmov deputat mandatı ilə vidalaşıb. 2005 və 2010-cu illərdə 16 saylı Yasamal II seçki dairəsindən Milli Məclisin III və IV çağırışları üzrə deputatı seçilən sabiq rektorun adı 2015-ci ildə hakim partiyanın millət vəkilliyinə namizədlər siyahısından çıxarılıb.

Sabiq rektorun hazırda Bakıda qeyri-rəsmi biznesinin olduğu və onu idarə etdiyi də bildirilir.

Onun oğlu Anar Məhərrəmov 26 iyul 2021-ci il tarixində Azərbaycanın Estoniyada fövqəladə və səlahiyyətli səfiri təyin edilib. Bundan əvvəl, 2016-cı ildən 2021-ci ilin aprelinədək isə o, Azərbaycanın İspaniyadakı səfiri vəzifəsində çalışıb.

Keçmiş rektorun digər övladı - qızı Nərminə Məhərrəmova Bakıda yerləşən ”Qlobus” uşaq bağçasına rəhbərlik edir.

***Sənan Mirzə***

**5.3.13. informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi;**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Yeni güzəştlər İKT sahəsinə nə vəd edir?

## Osman Gündüz: "Bu güzəştlər paketi ötən ilin sonu Prezidentin fərmanı əsasında İKT sektorunun, ekosistemin inkişafına təkan vermək üçün qəbul edilib"



***Azərbaycanda informasiya cəmiyyətinə keçidin təmin edilməsi, bu sahənin inkişafı dövlətin diqqətindədir. Azərbaycan hökuməti həm İKT sektorunun inkişaf etdirilməsində, həm də iqtisadiyyatın bir çox sahələrində yeni və qabaqcıl texnologiyaların tətbiq edilməsində mühüm təşəbbüslər həyata keçirir. Artıq İKT sahəsində fəaliyyət göstərən şirkətlər, bu şirkətlərdə çalışan yerli və xarici İT işçilər üçün bu ilin yanvar ayının 1-dən mühüm vergi, gömrük, sosial və miqrasiya güzəştləri təsdiq edilib.***

Güzəştlər texnoparkların ərazisində və kənarda fəaliyyət göstərən rezidentlərə şamil edilir. İstənilən İKT şirkəti texnoparkın rezidenti statusu almaq və bu güzəştlərdən yararlanmaq imkanı qazanır. Artıq Vergi Məcəlləsində və "Sosial sığorta haqqında" Qanunda da müvafiq dəyişikliklər edilib.

Bəs görəsən, həmin dəyişikliklər nədən ibarətdir?

İKT üzrə ekspert Osman Gündüz deyir ki, dəyişikliklərə əsasən, texnologiyalar parkının rezidenti kimi texnologiyalar parkından kənar sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslər qeydiyyata alındıqları hesabat ilindən başlayaraq 10 il müddətinə - gəlir, əmlak və torpaq vergiləri, dividendlər, texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalına münasibətdə ƏDV-dən azad edilib. Həmsöhbətimiz deyir ki, həmin şəxslərə vergi güzəştləri onların həm texnopark, həm də texnoparkdan kənar fəaliyyətinə şamil edilir: "Sistem inteqrasiyası, proqram təminatının hazırlanması və inkişaf etdirilməsi fəaliyyətini həyata keçirən şəxslərdə işləyən fiziki şəxslərin muzdlu işdən əldə edilən aylıq gəlirlərindən gəlir vergisi 3 il müddətinə - 8.000 manatadək aylıq gəlir olduqda 0 faiz, 8.000 manatdan artıq gəlirlərə münasibətdə 5 faiz və 01.01.2026-cı il tarixdən 7 il müddətinə aylıq gəlirin 5 faizi məbləğində tutulacaq".

İKT eksperti bildirir ki, "Sosial sığorta haqqında" Qanunda dəyişikliyə əsasən isə texnologiyalar parkının rezidenti onun podratçısı və podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçı tərəfindən həmin fəaliyyətin məqsədləri üçün cəlb edilən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər 2023-cü il yanvarın 1-dən 10 il müddətinə məcburi dövlət sosial sığorta haqqını ödəməkdən azad edilib: "Belə ki, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər istisna olmaqla, texnologiyalar parkının rezidenti, onun podratçısı və podratçısı ilə birbaşa müqavilə bağlamış subpodratçı, habelə bu şəxslər tərəfindən həmin fəaliyyətin məqsədləri üçün cəlb edilən fiziki şəxslərə isə 2023-cü il yanvarın 1-dən 10 il müddətində məcburi dövlət sosial sığorta haqqı, öz seçimlərindən asılı olaraq, minimum aylıq əməkhaqqı məbləğinin dörd misli miqdarından və ya muzdlu işdən əldə edilən gəlirlər üzrə qüvvədə olan qanunda göstərilən qaydada (14.3-cü və 14.4-cü maddələrə) ödənilməsi müəyyən edilib. Sığortaolunanlar bununla əlaqədar hər il yanvar ayının 15-dək öz seçimləri barədə yazılı məlumatı sığortaedənə təqdim etməlidirlər və təqvim ilinin sonunadək həmin seçim dəyişdirilmir. Növbəti təqvim ili üçün sığortaolunan qeyd olunan müddətdə seçimi barədə yazılı məlumatı təqdim etmədikdə, sığortaedən əvvəlki ildə həmin sığortaolunanın seçimini tətbiq edir. Bu tədbirlər "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər Proqramı"na uyğun olaraq, informasiya və kommunikasiya texnologiyalarının inkişafını özündə ehtiva edir".

O. Gündüz bildirir ki, bu güzəştlər İKT və yüksək texnologiyalar sahəsinin inkişaf etməsinə, innovasiya və rəqəmsal transformasiyanın sürətlənməsinə xidmət edəcək.

O. Gündüz deyir ki, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) 29 şirkətə bütün vergilərdən azad edilmək üçün texnopark rezidenti statusu verib. Onun sözlərinə görə, bu sahədə səlahiyyətli qurum olan RİNN-nin İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi cəmi bir dəfə bir neçə şirkətə texnopark rezidentliyi statusu Şəhadətnaməsinin verilməsi haqqında qısa bir məlumat paylaşıb. "Bu güzəştlər paketi ötən ilin sonu Prezidentin fərmanı əsasında İKT sektorunun, ekosistemin inkişafına təkan vermək üçün qəbul edilib. Vençur fondundan investisiya alan startaplarda olduğu kimi, bu İKT güzəştlərini əldə edən şirkətlərin də adlarını İRİA açıqlamayıb. Bir müddət öncə də bu haqda məsələ qaldırılmışdı, amma hələ də bu adlar gizlidir" deyə Osman Gündüz bildirib.

Xatırladaq ki, qəbul edilmiş dəyişikliklər ortamüddətli perspektivdə İKT sektoruna canlanma gətirəcək, nəticə etibarilə sahibkarlığın inkişafına ciddi təkan verəcək, bu sahədə Azərbaycanı regionun mərkəzinə çevirəcə. KT sahəsində digər ölkələrlə müqayisədə iqtisadi mühiti cəlbedici etməklə yanaşı, İKT məhsullarının innovativliyinin və keyfiyyətinin artırılmasına dəstək olacaq. Mütəxəssislər hesab edir ki, əcnəbilərlə bağlı olan güzəştlər əcnəbilərin ölkəmizə iş miqrasiyasına, xarici İT şirkətlərin isə ölkəmizdə ofis və nümayəndəliklərinin yaradılmasına maraq oyadacaq. Yerli İT şirkətlər isə daha keyfiyyətli işçi qüvvəsini ölkəmizə cəlb edə biləcəklər.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Əhali televiziyalarda nəyi izləyir? - SORĞU

***Sosial Tədqiqatlar Mərkəzinin keçirdiyi ötən sorğular vətəndaşların məlumat mənbələri arasında televiziyanın ilk sırada qərarlaşdığını göstərib.***

"Unikal" xəbər verir ki, bu istiqamətdə növbəti rəy sorğusundan əldə olunan nəticələr yerli, yoxsa xarici televiziya yayımlarına üstünlük verildiyini, eləcə də daha çox hansı növ proqramların izlənildiyini müəyyən etməyə imkan verib.

Ümumi nəticələrə görə, respondentlərin 81.8%-i televiziya kanallarını izlədiyini, 18.2% izləmədiyini bildirib. O cümlədən, sorğuda iştirak edənlərin 69.8%-i əsasən yerli televiziya kanallarına, 12.0%-i xarici televiziya kanallarına üstünlük verdiyini ifadə edib.

Nəticələr respondentlərin yaş qrupu, gender mənsubiyyəti və yaşayış yerinin növünə görə fərqlənir: Aşağı yaş qruplarından yuxarı yaş qruplarına doğru televiziya kanallarını izlədiyini bildirənlərin sayında artım qeydə alınır. Xatırladaq ki, ötən sorğular gənc nəslin əsas məlumat mənbələri kimi internet resurslarının, sosial şəbəkələrin ön planda olduğunu göstərib. Hazırkı sorğu da televiziya kanallarını izləməyənlərin daha çox 18-24 yaş qrupu (46.2%) iştirakçılar olduğunu müəyyən edib.

Kənd ərazi vahidlərində yaşayan respondentlərin 87.6%-i, şəhərdə məskunlaşanların isə 77.0%-i televiziya kanallarını izlədiyini bildirib. Kəndlərdə yaşayan respondentlərin 93.8%-i əsasən yerli, 6.2%-i əsasən xarici kanalları izlədiyini ifadə edərkən, şəhərdə yaşayanlar üzrə bu göstəricilər 80.5% və 19.5%-ə bərabər olub.

Nəticələri gender aspektindən nəzərdən keçirdikdə, qadınların 86.1%-i, kişilərin 77.7%-i televiziya kanallarını izlədiyini bildirib.

Respondentlərin hansı növ proqramları daha çox izləməsinə gəlincə, bu barədə ardıcıllıq yerli və xarici kanal izləyiciləri üzrə fərqlənir. Yerli kanalları izləyənlər daha çox xəbər və analitika proqramlarını qeyd edərkən, xarici kanallar üzrə film və serial izləyiciləri üstünlük təşkil edib.

"Xəbər və analitika" cavabı ən çox yaşı 65-dən yuxarı olan, "film və seriallar", "şou və əyləncə" cavabları daha çox orta yaş qrupu iştirakçılar tərəfindən seçilib.

"İctimai-siyasi" məzmunlu proqramlar daha çox ali təhsillilər, film və seriallar, şou və əyləncə tipli proqramlar orta təhsilli iştirakçılar tərəfindən izlənilir.

Sorğular 2023-cü ilin 14-17 may tarixlərində, könüllü iştirak əsasında 18 yaşından yuxarı 384 respondent arasında keçirilib, anonimlik tam qorunub. Sorğularda telefonla müsahibə formasından istifadə edilib və 12 iqtisadi rayon əhatə olunub. Bu məqsədlə müvafiq məlumat bazasından sözügedən iqtisadi və inzibati rayonlara (şəhərlərə) aid stasionar telefon nömrələri təsadüfi qaydada seçilərək zənglər olunub. Sorğunun seçmə çərçivəsi ölkə üzrə əhali sayının paylanmasına proporsional müəyyən edilib və gender balansı qorunub. Nəticələrin əminlik intervalı 95%, xəta payı 5%-ə bərabərdir.



# Avtomobillərin utilizatorlarının reyestri aparılacaq

***Azərbaycanda nəqliyyat vasitələrinin utilizasiyası üzrə operator müəyyən edilir.***

"Unikal" xəbər verir ki, bununla bağlı "İstehsalat və məişət tullantıları haqqında" qanununda dəyişiklik edilir.

Dəyişikliyə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəqliyyat vasitələrinin utilizasiyası üzrə operator (bundan sonra - operator) müəyyən edilir.

**Operator aşağıdakı funksiyaların icrasını təşkil və təmin edir:**

-nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitlərinin idarə olunması;

-utilizatorların reyestrinin (bundan sonra - reyestr) aparılması, saxlanılması və ona nəzarət;

-bu Qanunun 14-9-cu və 14-10-cu maddələrində nəzərdə tutulan yazılı məlumatların alınması;

-bu Qanunun 14-9-cu maddəsinin üçüncü hissəsinə uyğun olaraq təsdiqedici sənədlərin uçotunun aparılması.

-Operator nəqliyyat vasitələrinin utilizasiyası fəaliyyəti ilə məşğul ola bilməz.

Operator ona təqdim olunmuş məlumatları ümumiləşdirərək hər növbəti təqvim ili fevralın 20-dək müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) yazılı məlumat verir.

Bundan başqa, Azərbaycanda nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı reyestrdə qeydiyyatdan keçmək tələbləri müəyyən edilir.

Belə ki, reyestrdə qeydiyyata alınmaq üçün ərizəçidən (hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs və ya hüquqi şəxs) aşağıdakılar tələb olunur:

- vergi, məcburi dövlət sosial sığorta haqqı, icbari tibbi sığorta haqqı və işsizlikdən sığorta haqqı üzrə borcu olmamaq;

- nəqliyyat vasitələrinin qəbulunu, saxlanılmasını və utilizasiyasını həyata keçirmək üçün mülkiyyətində, yaxud sahibliyində və ya istifadəsində müvafiq ərazilərə malik olmaq;

- nəqliyyat vasitələrinin, o cümlədən utilizasiya nəticəsində əldə edilən materialların və hissələrin saxlanılması üçün onların zədələnməməsini təmin edən, üzəri dağılmayan və texniki mayeləri sızdırmayan material ilə örtülən (asfalt, beton, gil-beton, polimer beton) sahələrə malik olmaq;

- təhlükəli tullantıların saxlanılması üçün normativ hüquqi aktiarla nəzərdə tutulan tələblərə cavab verən sahələrə malik olmaq;

- nəqliyyat vasitələrinin, onların hissələrinin (partlayıcı qabiliyyətli, o cümlədən təhlükəli tullantılara xas olan digər xüsusiyyətlərə malik hissələrin) təhlükəsiz qaydada sökülməsi üçün maddi-texniki bazaya malik olmaq;

- nəqliyyat vasitələrinin təkrar istifadəyə yararlı hissələrinin yoxlanılması üçün maddi-texniki bazaya malik olmaq.

Həmçinin, ölkəmizdə utilizasiya edilmiş nəqliyyat vasitələrindən istifadə qaydası müəyyənləşir.

Utilizatorlar tərəfindən utilizasiya edilmiş nəqliyyat vasitələrindən əldə olunan yararlı materiallar və əşyalar mülki qanunvericiliyə uyğun olaraq bağlanılmış müqavilə əsasında ehtiyat hissələrinin emalı və satışı ilə məşğul olan sahibkarlıq subyektlərinə satılır.

Utilizatorlar bağlanılmış müvafiq müqavilənin və təhvil-təslim sənədlərinin surətlərini əlavə etməklə bu barədə hər növbəti təqvim ili yanvarın 20-dək operatora yazılı məlumat verirlər.

***Anar Kəlbiyev***

# Keçmiş məcburi köçkünlərin əvvəl müvəqqəti yaşadıqları evlərin aqibəti necə olacaq?

***30 ilə yaxın doğma yurd həsrəti ilə yaşamış məcburi köçkünlərin yurd-yuvalarına dönüşü başlanıb.***

44 günlük Vətən müharibəsindən sonra Böyük Qayıdışın mümkün qədər tez və sürətlə gerçəkləşməsi üçün həmin ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işləri aparılır.

Əlbəttə, işğalın nəticələri ağır, dağıntıların miqyası böyük oldu. Yüz minlərlə insan qaçqınlığın və məcburi köçkünlüyünün məhrumiyyətləri ilə üzləşdi. 1988-93-cü illərdə Ermənistanın hərbi təcavüzü və işğalçılıq siyasəti nəticəsində Qarabağdan və Şərqi Zəngəzurdan didərgin düşən 1 milyona yaxın azərbaycanlı ölkənin müxtəlif bölgələrinə sığındı, inzibati binalarda, yarımçıq tikililərdə, çadır düşərgələrdə, vaqonlarda müvəqqəti məskunlaşmalı oldu.

Əhalinin bu həssas təbəqəsinin sosial-məişət problemlərinin həlli, həyat şəraitinin yaxşılaşdırılması daim Ulu Öndər Heydər Əliyevin diqqət mərkəzində idi. Prezident İlham Əliyev isə hələ 2003-cü ildə Biləsuvar rayonunda məcburi köçkünlərlə görüşündə yaxın illərdə ölkədə bütün çadır düşərgələrin ləğv olunacağını bəyan etdi. Və cəmi 4 il ərzində bu vəd yerinə yetirildi - 2007-ci ildə sonuncu çadır düşərgəsi ləğv edildi, minlərlə məcburi köçkün ailəsi dövlət tərəfindən inşa edilən müasir tipli qəsəbələrdə müvəqqəti olaraq yerləşdirildi.

Sonrakı illərdə də qaçqınların və məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması üçün ardıcıl tədbirlər həyata keçirildi. Bakıda, digər şəhərlərdə və rayonlarda hər cür sosial-texniki infrastrukturu olan yaşayış kompleksləri, qəsəbələr tikildi, qəzalı vəziyyətdə olan bina və tikililərdə ağır şəraitdə yaşayan məcburi köçkün ailələri yeni yaşayış sahələri ilə ilk növbədə təmin olundular.

Bu gün də əhalinin bu həssas qrupunun problemlərinin həlli Prezident İlham Əliyevin sosial siyasətinin prioritet istiqaməti kimi bu gün də aktuallığını saxlayır. Birinci vitse-prezident Mehriban xanım Əliyeva məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına, təhsil, sağlamlıq, mədəni inkişaf məsələlərinə xüsusi diqqət və qayğı göstərir.

Dövlətin sosial müdafiə tədbirləri didərginlik ağrılarını yüngülləşdirsə də, yenidən ata-baba torpaqlarına qayıtmaq bu insanların ən böyük arzusu idi. Və 44 günlük müharibədə qazanılan zəfər bu arzunun gerçəkləşməsinə imkan yaranıb. Qarabağ və Şərqi Zəngəzur sürətlə dirçəldilir. Artıq Zəngilan rayonunun yenidən salınmış Ağalı kəndinə, Tərtər rayonunun Talış kəndinə, bu günlərdə isə Laçın şəhərinə bir qrup məcburi köçkün ailəsinin qayıdışı təmin edilib və proses davam edir.

Təbii ki, Böyük Qayıdış asan və tez reallaşan proses deyil. Çünki 30 ilə yaxın işğal altına olmuş ərazilərdə düşmən daşı-daş üstündə qoymayıb - yaşayış məntəqələrimiz yerlə-yeksan edilib, bütün infrastruktur dağıdılıb. Üstəlik, torpaqlarımızda basdırılmış saysız-hesabsız mina və partlayıcılar dinc quruculuq fəaliyyəti və yaşayış üçün ciddi təhlükə olaraq qalır. Prezidentin tapşırığına uyğun olaraq, keçmiş məcburi köçkünlər yalnız onların təhlükəsizliyinə və layiqli həyat şəraitinə təminatın yaradıldığı ərazilərə köçürülür. Böyük Qayıdışı məhz bu prinsip əsasında, mərhələli şəkildə həyata keçirilir.

İşğaldan azad edilmiş ərazilərə dönüş artıq yalnız keçmiş məcbur köçkünlərin yox, əhalinin sosial müdafiəyə daha çox ehtiyacı olan digər kəsiminin də yaşayış şəraitinin yaxşılaşdırılması, mənzil-məişət problemlərinin həlli üçün yeni imkanlar açır.

Məlum olduğu kimi, Böyük Qayıdışa, ilk növbədə, müvəqqəti məskunlaşma yerlərində ağır şəraitdə yaşayan məcburi köçkünlər cəlb olunurlar. Bununla belə, bərpa edilən və yeni salınan yaşayış məntəqələrinə qayıdanlar arasında köçkünlük dövründə dövlət tərəfindən müvəqqəti olaraq yeni təmirli fərdi ev və ya mənzillərlə təmin edilmiş ailələr də var.

"Qafqazinfo"ya məlum olub ki, 30 illik həsrətdən sonra doğma yurda qayıdan keçmiş köçkünlər illər boyu sığındıqları müvəqqəti mənzilləri boşaldır və aidiyyəti üzrə təhvil verirlər. Bu da təbiidir - məcburi köçkünlərin Bakıda və digər bölgələrdə müvəqqəti məskunlaşdıqları fərdi evlər və mənzillər dövlətin xüsusi təyinatlı yaşayış fonduna məxsusdur. Çünki vaxtilə məcburi köçkün ailələrinə dövlət tərəfindən fərdi ev və ya mənzil verilərkən onların burada müvəqqəti - yəni işğal altındakı ərazilər azad edilənə və həmin ərazilərə qayıdış üçün şərait yaradılana qədər - yaşaması nəzərdə tutulub.

Yeri gəlmişkən, məcburi köçkünlərin müvəqqəti yerləşdirilməsi fondunun yaşayış sahələrinin verilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 24 fevral tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş Qayda ilə tənzimlənir.



Həmin Qaydaya əsasən, məcburi köçkünlərin müvəqqəti yerləşdirilməsi fondunun yaşayış sahələrindən istifadə şərtləri belədir:

- məcburi köçkünlər müvəqqəti istifadəsinə verilmiş yaşayış sahələrindən onlarla bağlanılmış kirayə müqaviləsində göstərilən şərtlərə uyğun olaraq istifadə etməlidirlər;

- məcburi köçkün ailəsi müvəqqəti istifadəyə verilmiş yaşayış sahəsində faktiki yaşamırsa, yaxud mənzili başqasına verərsə, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin müvafiq qurumu tərəfindən mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq ev boşaldılaraq komitənin rəhbərliyi ilə razılaşdırmaqla, daha çox ehtiyacı olan digər məcburi köçkün ailəsinə müvəqqəti istifadəyə verilir;

- məcburi köçkünlərin onların müvəqqəti istifadəsinə verilmiş yaşayış sahəsini satmaq, bağışlamaq, başqasının istifadəsinə vermək, kirayəyə vermək, özbaşına dəyişmək, ipoteka qoymaqla və digər vasitələrlə evləri özgəninkiləş-dirmək və başqasını həmin evə köçürmək hüququ yoxdur;

- məcburi köçkün ailəsinə müvəqqəti istifadə məqsədi ilə verilmiş yaşayış sahəsi onların xüsusi mülkiyyəti olmadığından, həmin evlər qanun və ya vəsiyyətnamə üzrə miras kimi başqa şəxslərə (vərəsələrə), həmçinin himayəyə və ya qəyyumluğa götürülmüş şəxsin istifadəsinə verilə bilməz.

Məcburi köçkünlərin müvəqqəti yerləşdirilməsi fondunun yaşayış sahələrinə köçürülən hər bir ailənin başçısı kirayə müqaviləsi imzalamaqla ailə üzvləri adından bu şərtləri qəbul edir. Doğma yurda qayıdan və orada layiqli həyat şəraiti ilə təmin olunan hər bir ailənin boşaltdığı yaşayış sahəsi Böyük Qayıdışın növbəti mərhələlərini gözləyən və hələ də ağır vəziyyətdə yaşayan köçkünlərin, eləcə də şəhid ailələrinin, müharibə əlillərinin və veteranlarının müvəqqəti istifadəsinə verilir. Və əslində, bu, sosial ədalət və humanizm prinsiplərinə tam uyğundur(qafqazinfo).

# Abşeronda magistral kanalı təmizlənir, Zərdabda əkin sahələri suvarılır



***Zərdabda 42 min hektardan artıq əkin sahəsi suvarılır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, Zərdab rayonunda hər il olduğu kimi bu il də əkilən kənd təsərrüfatı bitkilərinin suvarılması davam edir.***

Bunun üçün Zərdab Suvarma Sistemləri İdarəsi tərəfindən meliorativ tədbirlər uğurla aparılır. Ümumilikdə idarə 42 min hektardan artıq əkin sahələrinin suvarılmasına xidmət edir. Su təminatı üçün 69 nasos stansiyasının, suvarma kanallarının, o cümlədən nov kanalların, onlar üzərindəki hidrotexniki qurğuların istismarı həyata keçirilir. Suvarmanın daim aparılması üçün balansda olan nasos stansiyalarda mütəmadi olaraq sazlama işləri həyata keçirilir. Təmir-bərpa işləri çərçivəsində isə 300 metr dəmir beton nov kanal təmir edilib. Stasionar nasos stansiyalarda suqəbuledici borular uzadılıb.

Zərdab rayonunda su itkilərini minumuma endirmək, sudan istifadənin səmərəliliyini artırmaq üçün son illər asma dəmir-beton nov kanalları və beton kanallar təmir olunur. Bundan başqa ilin əvvəlindən etibarən suvarma mövsümünə hazırlıq məqsədi ilə torpaq məcralı kanallar lildənvə kol-kosdan təmizlənir. Hazırda idarənin texnikaları vasitəsi ilə bir-neçə istiqamətdə bu işlər həyata keçirilir. İlin əvvəlindən bu günə kimi Zərdab Suvarma Sistemləri İdarəsi tərəfindən 150 km məsafədə kanallar lildən təmizlənib.

Qeyd edək ki, bu il Zərdab rayonunda 18500 hektar sahədə taxıl, 2700 hektar pambıq, 15500 ha yonca, 541 ha qarğıdalı, 151 ha çəltik, 413 ha xəsil və digər kənd təsərrüfatı təyinatlı bitkilər əkilib. Hazırda adıçəkilən əkin sahələrində suvarma davam edir.

Abşeron magistral kanalı təmizlənir. Dilqəm Şərifov bildirib ki, Abşeron Suvarma Sistemləri İdarəsi tərəfindən rayon ərazisində meliorativ tədbirlər davam edir. İdarə yaz-yay suvarma mövsümü çərçivəsində Abşeron magistral kanalında genişmiqyaslı lildən və tullantılardan təmizləmə işlərini artıq yekunlaşdırıb. Magistral kanal üzərində mövcud olan 40 ədəd nasos stansiyaların hər birinə baxış keçirilib və təmir işləri aparılıb. Hazırda nasos stansiyalar sayəsində bütün böyük təsərrüfatlar suvarılır. Suvarılan sahələr zeytun bağları, badam bağları, buğda və arpa sahələridir.

İdarə 70 km magistral, 33 km qol kanalları ilə birlikdə ümumi uzunluğu 100 kilometrdən artıq olan Abşeron magistral kanalına xidmət edir ki, hazırda bu kanal bir-neçə istiqamətdə maşın mexanizmlər tərəfindən təmizlənir. İşlər dörd istiqamətdə davam edir. Mütəmadi görülən işlərə baxmayaraq kanalın bəzi hissələrində, əsasən də yaşayış məntəqələrindən keçən ərazilərində tez-tez çirklənmə halları baş verir. Hələ də məişət tullantıları kanala atılır. Buna baxmayaraq görülən təxirəsalınmaz işlər nəticəsində kanalda suyun normal axını təmin edilir.

Qeyd edək ki, Abşeron Suvarma Sistemləri İdarəsi 17 min hektardan artıq suvarılan torpaq sahəsinə xidmət edir. Həmin sahələrdə əkilən müxtəlif növ kənd təsərrüfatı bitkilərinin normalara uyğun olaraq suvarılması idarə tərəfindən mütəmadi olaraq təmin edilir.

***Hüseyn İsgəndərov***




# İctimai işlər üzrə növbəlilik reyestri yaradıldı

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyinin rəsmi saytında (www.dma.gov.az) aktiv məşğulluq proqramlarından biri olan haqqı ödənilən ictimai işlər üzrə növbəlilik mexanizmini əks etdirən reyestr yaradılıb.***

Agentlikdən verilən məlumata görə, məqsəd işaxtaran və işsiz şəxslərin haqqı ödənilən ictimai işlərə cəlb olunması zamanı yarana biləcək neqativ halların qarşısının alınması, bu sahədə şəffaflığın, vətəndaş məmnunluğunun təmin olunmasıdır.

Reyestr həmçinin ictimai işlər proqramının icrasında ictimai açıqlıq və ictimai nəzarətə şərait yaradır, ədalətlilik prinsipinin qorunub saxlanılmasına xidmət edir.

İctimai işlərə müraciət edən hər bir vətəndaş qeyd olunan saytda "Reyestrlər" bölməsinə daxil olmaqla real vaxt rejimində öz növbəsini izləyə, müxtəlif müəssisələr üzrə növbəlilik siyahısı, işlə təmin olunan şəxslər və digər məlumatlarla tanış ola bilər.

Haqqı ödənilən ictimai işlər proqramının hər bir mərhələsi növbəli qaydada həyata keçirilir.

Növbəlilik isə şəxslərin müraciət etmə tarixi, ünvanlı dövlət sosial yardımı alması, əlilliyi olması, himayəsində sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaq olması, bir ildən artıq işsiz kimi qeydiyyatda olması, pensiya yaşına iki ildən az qalmış şəxs olması, cəzaçəkmə yerlərindən azad edilmiş işsiz şəxs olması və şəhid ailəsinin üzvü olması nəzərə alınmaqla təyin edilir.

Vətəndaşa hər bir meyara uyğun müvafiq bal verilməklə növbə sırası müəyyən edilir.

# Ağdaş rayonunda aqrar sektor inkişaf edir

***Ölkədə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatının yaradılması məqsədilə aqrar sektorunun inkişaf etdirilməsi üçün qarşıya mühüm vəzifələr qoyulmuşdur. Bu sahədə qəbul edilmiş dövlət proqramları, aqrar sektorun sahələr üzrə inkişafını tənzimləyən qərarlar, sahibkarlığın inkişafına göstərilən dövlət qayğısı aqrar sektorun inkişafına stimul yaratmışdır.***

Bu isə öz növbəsində ölkədə ərzaq təhlükəsizliyinin təmin olunmasına, idxaldan asılılığın azaldılmasına, eləcə də məhsul bolluğu yaradılmasına və aqrar sahənin ixrac potensialının artırılmasına zəmin yaradır.

Bunun nəticəsində Ağdaş rayonunda ötən illərlə müqayisədə aqrar sektorda məhsul istehsalının artırılması və əkin sahələrinin genişləndirilməsi istiqamətində müsbət irəliləyişlər müşahidə olunmuşdur.

Rayonda fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında 01 may 2023-cü il tarixə 3597,6 hektar sahədə müxtəlif növ yazlıq bitkilərin əkini aparılmışdır. Bu da, keçən ilin müvafiq dövrü ilə müqayisədə 105,0 hektar və ya 3,0 faiz çoxdur. Yazlıq əkinlərin əsasını çoxillik otlar - yonca təşkil etmişdir. Belə ki, əkilmiş yazlıq əkinlərin 2364,9 hektarını çoxillik otlar, 708,4 hektarını tərəvəz, 187,4 hektarını kartof, 102,0 hektarını qarğıdalı, 93,0 hektarını çəltik, 76,5 hektarını birillik otlar, 39,9 hektarını yazlıq arpa, 17,5 hektarını vələmir, 8,0 hektarını isə bostan bitkiləri təşkil etmişdir. Hazırda təsərrüfatlarda yazlıq bitkilərin əkini davam edir.



2023-cü ilin yanvar-aprel ayları ərzində Ağdaş rayonunda ötən ilin eyni dövrünə nisbətən diri çəkidə ət istehsal 0,1 faiz artaraq 3 min 978,5 ton, süd istehsalı 0,3 faiz artaraq 16 min 61,4 ton olmuşdur. Bu dövrdə yumurta istehsalı 9 milyon 198 min ədəd və yun istehsal 148,8 ton təşkil etmişdir.

01 aprel 2022-ci il tarixə Ağdaş rayonunda 70,9 min baş iri buynuzlu mal-qara, 78,9 min baş xırda buynuzlu mal-qara vardır.

***Elşən Abdullayev***
***Ağdaş Rayon Statistika İdarəsinin rəis müavini***

# Qəbul imtahanlarına qeydiyyat tarixi dəyişdi

***I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanlarının II mərhələsinin 2-ci cəhdində iştirak etmək üçün ərizə qəbulu tarixlərinə düzəliş edilib və qeydiyyat prosesi iyunun 5-dən 20-dək aparılacaq.***

"Unikal" xəbər verir ki, Nazirlər Kabinetinin "İş və istirahət günlərinin yerlərinin dəyişdirilməsi" haqqında 25 may 2023-cü il tarixli 164 №-li Qərarına uyğun olaraq 26 iyun-2 iyul tarixləri qeyri-iş günləri hesab olunduğundan imtahana hazırlıq işlərinin vaxtında başa çatdırılması üçün qeydiyyat prosesinin iyunun 20-dək aparılması nəzərdə tutulub.

Xatırladaq ki, imtahanların 2-ci cəhdi III ixtisas qrupu üzrə 8 iyul, II ixtisas qrupu üzrə 9 iyul, I ixtisas qrupu üzrə 22 iyul, IV ixtisas qrupu üzrə isə 23 iyulda keçiriləcək.

# Bank kartıdan pul oğurlandı

***Bakı sakininin bank kartının hesabından pul oğurlanıb.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib.

Bildirilib ki, Sabunçu Rayon Polis İdarəsinin 14-cü Polis Bölməsi əməkdaşlarının daxil olan məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində mayın 25-də paytaxt sakini olan bir nəfərin bank kartından hesabındakı 641 manatını oğurlamaqda şübhəli bilinən paytaxt sakini Vüqar Qafarov müəyyən olunaraq saxlanılıb.

Araşdırma aparılır.

# Ərdoğan Sadır Japarovu andiçmə mərasiminə dəvət etdi

***Qırğızıstan rəhbəri Sadır Japarovla yenidən Türkiyə prezidenti seçilən Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olub.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Japarov türkiyəli həmkarını prezident seçkilərində qazandığı qələbə münasibətilə ürəkdən təbrik edib. Ərdoğan Qırğızıstan rəhbəri liderini andiçmə mərasiminə dəvət edib. Qeyd edək ki, Ərdoğanın andiçmə mərasimi şənbə günü, iyunun 3-də baş tutacaq.

# "Rusiyanın 208 mindən çox hərbçisi öldürülüb" - Baş Qərargah

***Rusiya son sutkada Ukraynadakı müharibədə 460 hərbçisini itirib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı açıqlayıb. Məlumata görə, bununla da müharibə başlanandan bəri rusların Ukraynadakı ümumi canlı itkiləri 208 370 nəfərə çatıb. Bildirilib ki, Rusiyanın müharibədə 3804 tankı, 7478 zirehli döyüş maşını, 333 ədəd hava hücumundan müdafiə vasitələri, 313 təyyarə, 298 ədəd helikopter, 18 gəmi, 1107 qanadlı raket və s. hərbi vasitələri məhv edilib.

***Ağarza***

# "Altılı masa"nın ortaqlarından biri istefa verdi

***Türkiyədə DEVA Partiyasının İstanbul vilayəti üzrə sədri Erhan Erol istefa verib.***

"Unikal" xəbər verir ki, bu barədə Erol özü açıqlayıb. O, artıq ərizəsini təqdim edib.

Qeyd edək ki, Erhan Erol Türkiyədə müxalif "altılı masa"nın ortaqlarından idi.

# İrəvanda 4 müstəntiq buna görə saxlanıldı

***İrəvanın Ərəbkir rayon istintaq şöbəsinin 4 müstəntiqi saxlanılıb.***

"Unikal" erməni mətbuatına istinadən xəbər verir ki, bu barədə Ermənistan İstintaq Komitəsinin mətbuat katibi Qor Abramyan məlumat yayıb. Bildirilir ki, 4 müstəntiq narkotik vasitələrin qanunsuz dövriyyəsi və vəzifə səlahiyyətlərindən sui-istifadə hallarına görə saxlanılıb. Araşdırmalar davam edir.

# DXR rəhbəri bütün Ukrayna ərazisini nəzarətə götürməyə çağırdı

***"Donetsk Xalq Respublikası"nın müvəqqəti rəhbəri Denis Puşilin Ukraynanın bütün ərazisini "Kiyev rejimi"ndən azad etməyə çağırıb.***

"Unikal" rus mətbuatına istinadən xəbər verir ki, o, bunu Moskvada "Bizə necə Ukrayna lazımdır?" forumunda deyib.

Onun sözlərinə görə, Ukrayna hazırkı rəhbərliyin hakimiyyəti altında qalsa və ya başqa ölkənin bir hissəsini alsa, o zaman "bu, Rusiyaya növbəti hücum üçün tramplin olacaq".

# "Sülh sammitinin vaxtı hələ müəyyən edilməyib" - Zelenski

***Ukrayna sülh düsturuna həsr olunmuş beynəlxalq sammitin konkret tarixi hələ müəyyən edilməyib.***

"Unikal" xəbər verir ki, bunu Ukrayna Prezidenti Volodimir Zelenski Kişinyovda Avropa Siyasi Birliyinin sammiti başlamazdan əvvəl jurnalistlərə açıqlamasında deyib.

"Sülh düsturuna gəlincə, biz indi belə bir sammit təşkil edəcəyimiz mərhələdəyik. Onun keçirilməsi bəzi məsələlərdən asılıdır. Təbii ki, biz istəyirik ki, orada mümkün qədər çox ölkə iştirak etsin. Ona görə də tarix açıqlanmayıb", - Zelenski bildirib.

Qeyd edək ki, 2022-ci ilin noyabrında Ukrayna prezidenti "İyirmilik Qrupu" sammitinin iştirakçıları qarşısında çıxışında 10 bəndlik Ukrayna sülh formulasını təqdim edib.

Xirosimada keçirilən G7 sammitində çıxışı zamanı Zelenki iyulda Ukrayna sülh düsturuna həsr olunmuş beynəlxalq sammitin keçirilməsini təklif edib. Danimarka belə bir sammitə ev sahibliyi etməyə hazır olduğunu bildirib.

***Gülayə Mecid***

# NATO-nun Rusiya ilə bağlı gizli planı ortaya çıxdı

***Şimali Atlantika Alyansı Rusiya ilə hərbi toqquşma olacağı təqdirdə gizli plan hazırlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə Amerikanın "Statecraft" nəşri məlumat yayıb.

Bildirilir ki, NATO-nun iyulun 11-12-də Vilnüsdə keçiriləcək sammitində "minlərlə səhifəlik gizli hərbi planların" təsdiq edilməsi təklif olunacaq. KİV-in məlumatına görə, Soyuq Müharibədən sonra ilk dəfə olaraq bu planlar Rusiya Federasiyası ilə birbaşa qarşıdurma ssenarisini ətraflı təsvir edəcək.



"NATO-nun Brüsseldəki mənzil-qərargahında daimi hərbi nümayəndələr və alyansın digər rəsmiləri bu sənədləri qanunvericilər və müstəqil ekspertlər tərəfindən əvvəlcədən yoxlanılmadan bağlı qapılar arxasında hazırlayıblar",- nəşr vurğulayıb.

Daha əvvəl bildirilmişdi ki, NATO Rusiyanın Ukraynada xüsusi hərbi əməliyyatına başladıqdan sonra öz sərhədlərində mümkün hərbi əməliyyatlara hazırlaşır.

Bundan əvvəl Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko bildirib ki, ölkə ilə NATO arasında hərbi toqquşma riskləri artır.

***Gülayə Mecid***

# "Qərb Belarusda hakimiyyət dəyişikliyi planlaşdırır" - Lukaşenko

***Qərb Belarusda hakimiyyət dəyişikliyi üçün güclü ssenari hazırlayır.***

"Unikal" xəbər verir ki, bunu Belarus prezidenti Aleksandr Lukaşenko Belarusun Təhlükəsizlik Orqanları və Xüsusi Xidmətləri Rəhbərləri Şurasının 52-ci sessiyasının iştirakçıları ilə görüşündə deyib.

"Belarusa gəlincə, qeyd edə bilərəm ki, Polşada, Litvada və təəssüf ki, Ukraynada qeyri-qanuni silahlı birləşmələrin üzvləri hazırlanır, bilavasitə ölkədə ekstremist hüceyrələrin yaradılmasına cəhdlər edilir", - Belarus lideri bildirib.

Onun sözlərinə görə, bütün bunlara son faktlar və hadisələr də sübutdur.

"Başqa sözlə, ölkəmiz hakimiyyət dəyişikliyi üçün güclü ssenariyə hazırlanır, biz bunu görürük, imkan verməyəcəyik",



- deyə Lukaşenko yekunlaşdırıb.

***Gülayə Mecid***

# Kreml Baxmutda "Vaqner"i Kadırovçularla əvəz etmək istəyir

***Moskva hücumu davam etdirmək üçün "Vaqner"i Çeçenistan lideri Ramzan Kadırovun bölmələri ilə əvəz etmək istəyir.***

"Unikal" xəbər verir ki, bu barədə Amerika Müharibə Araşdırmaları İnstitutunun (ISW) hesabatında deyilir.

Qeyd olunur ki, Çeçenistan Respublikasının rəhbəri Ramzan Kadırov, "Vaqner" döyüşçülərinin Baxmutdan çıxa-



rılmasından sonra Ukraynada hücum əməliyyatlarına başlamaq üçün Kremldən göstəriş alıb.

"Kadırov bildirib ki, çeçen qüvvələri yeni əmr alıb və Ukraynanın Donetsk vilayətində cəbhə xəttinə görə məsuliyyəti öz üzərinə götürüb. Onun sözlərinə görə, çeçen bölmələri aktiv döyüş əməliyyatlarına başlamalı və bir sıra yaşayış məntəqələrini azad etməlidir", - hesabatda qeyd olunub.

***Gülayə Mecid***

# "Bakı ilə İrəvan arasında sülh danışıqları regionun maraqlarına uyğundur" - Qaribaşvili

***"Gürcüstan Azərbaycanla Ermənistan arasında sülh danışıqlarını dəstəkləyir".***

"Unikal" xəbər verir ki, TASS xəbər verir ki, bunu Gürcüstanın baş naziri İrakli Qaribaşvili Moldovada "Avropa siyasi birliyi"nin sammitində jurnalistlərə açıqlamasında deyib.

"Düşünürəm ki, Gürcüstan regionumuzda sabitliyi və sülhü möhkəmləndirmək üçün neytral, qərəzsiz rol oynayıb və oynayır. Bizim həm Azərbaycanla, həm də Ermənistanla əla münasibətlərimiz var. Gürcüstan Qarabağ müharibəsindən sonra çox mühüm vasitəçilik rolunu oynayıb. Əslində biz Azərbaycan və Ermənistan arasında gedən sülh danışıqlarını dəstəkləyirik və hesab edirik ki, bu, Gürcüstanın, Azərbaycanın, Ermənistanın və bütün regionun maraqlarına cavab verir", - Qaribaşvili bildirib.

***Gülayə***



# "Rusiyada məni perspektivsiz oyunçu hesab edirdilər" - Şahruddin Məhəmmədəliyev

***”Qarabağ”ın qapıçısı Şahruddin Məhəmmədəliyev Rusiya mətbuatına geniş müsahibə verib.***

Qol.az xəbər verir ki, championat.com saytına danışan 28 yaşlı dağıstanlı futbolçu bir sıra maraqlı məqamlara aydınlıq gətirib.

Azərbaycan vətəndaşlığını necə alması ilə bağlı danışarkən qapıçı bildirib: ”Mənim Azərbaycan köklərim yoxdur. Sadəcə maraqlandım. 2014-cü ilin dekabrında, daha sonra martda Azərbaycanın gənclərdən ibarət yığmasının toplanışına çağırıldım. Azərbaycan federasiyasından olan şəxslər Rusiya Futbol İttifaqı ilə əlaqə saxlayıb mənim idman vətəndaşlığımı dəyişmək üçün icazə aldılar. Mən də bunda maraqlı idim. Hətta Rusiyanı tərk edərkən özümü daxilən hadisələrin belə cərəyan edəcəyinə hazır sayırdım. Artıq geri qayıtmaq istəmirdim”.

O deyib ki, Rusiya futbolundan hər hansı incikliyi olmayıb: ”Amma başa düşürdüm ki, bu sistemlə heç nə etmək olmaz. İnsanlar sizə baxmaq belə istəmirlər. Sanki adamı yox, kağız parçasını görürlər. Bununla necə mübarizə aparasan? Eyni zamanda, məni ”Torpedo” məktəbində yetişdirən bütün məşqçilərə, Şerbaka minnətdaram”.

”Bəs Azərbaycanda belə hallar baş vermir” sualını Şahruddin Məhəmmədəliyev belə cavablandırıb: “Sumqayıt”la daxili çempionatda çıxış edəndə heç kim boy göstəricilərinə önəm vermirdi. Ancaq gənclər millisində buna diqqət yetirə bilərdilər. Axı Almaniya, Norveç, Rusiya kimi ciddi rəqiblərlə qarşılaşırdıq. Təbii ki, “Qarabağ”da əvvəl belə münasibət vardı. Axı, bu, hədəfləri, ambisiyaları yüksək olan komandadır. Amma Rusiyadakı münasibət qədər deyil”.

O, Rusiyanın yeniyetmələrdən ibarət millisinə çağırılması zamanı boyuna görə problemlə üzləşdiyini söyləyib: ”Məşqçi Nikonov məni seleksiya toplanşına dəvət etdi. Amma millidəki tam mühütu mən mən Şerbakın (2010-13-cü illərdə Rusiyanın U-17 millisinin baş məşqçisi Vladimir Şerbak - red.) rəhbərliyi altında hiss etdim. O, çox gözəl adam və məşqçi idi. Sözü üzə deməkdən çəkinmirdi. Heç nəyi gizlətmədi və bildirdi ki, Şah, problem bax, bundadır, ona görə səni çağırmıram. Ola bilsin ki, Şerbak məni bir oyunçu kimi bəyənirdi. Amma o, başqalarının fikirləri ilə hesablaşmalı olurdu. Məsələn, qapıçılarla işləyən məşqçilər həmişə boy haqqında danışırlar. Bundan başqa, yuxarı yaş qruplarının məşqçiləri, xüsusən də U-21-dəkilər məni perspektivsiz hesab edirdilər. Deyirdilər ki, yüksək səviyyədə oynamağım üçün boyum o deyil. Məncə, artıq bu insanları inandırmaq olmaz”.

Məhəmmədəliyev Azərbaycanın U-21 millisinin tərkibində Rusiya ilə oyunları da yada salıb. Bakıdakı matç komandamızın 3:0 hesablı qələbəsi ilə yekunlaşıb, Rostovdakı görüş isə heç-heçə bitib. Həmin görüşdə Rusiyanın heyətində sonralar Azərbaycanın əsas millisin çağırılan Ramil Şeydayev də iştirak edib.

Şahruddin bununla bağlı deyib: ”Bu görüşü necə unutmaq olar? Ramili indiyə qədər ”öldürürəm”, ha-ha! Deyirəm ki, mən səni Bakıya necə apardım, hə? O da susur. Cavab verəcək bir şey yoxdur, axı”.

Məhəmmədəliyev Çempionlar Liqasının pley-off mərhələsində ”Viktoriya” (Çexiya) ilə matçda etdiyi səhvə görə ünvanına yönələn tənqidlərə də toxunub. O deyib: ”Bəlkə də belə oynamağı dayandırsam, daha o mən olmayacağam. Həmişə belə olmuşam. Bu, mənim üslubumdur. Sadəcə nə vaxtsa düzəliş edilməlidir. Düşünürəm ki, illər keçdikcə daha təcrübəli və müdrik oluram. ”Viktoriya” ilə matçdakı səhv də məni yalnız daha güclü və ağıllı etdi. Tənqidi qəbul etmək təbii ki, xoşagəlməzdir. Amma nə etmək olar? Səhv etmək normal şeydir”.

Şahruddin bildirib ki, o, oynayan qapıçıdır: ”Mən sadəcə çərçivədə dayanmağı sevmirəm. Sığortalamağı, ayaqla oynamağı, cərimə meydançasından çıxmağı xoşlayıram. Bu, çox risklidir - sən topun trayektoriyasını hesablamaya və ötürmədə səhv edə bilərsən. Amma ümumiyyətlə, illər keçdikcə sakitləşirəm”.



# Şəhriyar Məmmədyarov hindistanlı rəqibə qarşı



***Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov Norveçin Stavanger şəhərində təşkil olunan ”Norway Chess” turnirində növbəti oyununu keçirəcək.***

“Unikal”ın məlumatına görə, 38 yaşlı qrossmeyster III turda hindistanlı Qukeş Dommaraku ilə üz-üzə gələcək.

Məmmədyarov hazırda 1,5 xalla norveçli Maqnus Karlsenlə birlikdə 8-9-cu pillələri bölüşdürür. Aktivində 3 xalı olan Dommaraku isə Fransanı təmsil edən Alireza Firuzca ilə 4-5-ci yerdədir.

Qeyd edək ki, “Norway Chess” iyunun 9-da başa çatacaq. Reqlamentə əsasən, birbaşa qələbəyə görə 3 xal verilir. Heç-heçə olacağı təqdirdə rəqiblər armageddonda qarşılaşırlar. Bu halda qalib 1.5, məğlub olan tərəf isə 1 xal əldə edir.

# Avroliqada finalın ən yaxşı oyunçusu açıqlandı



***İspaniyanın “Sevilya” və Mərakeş yığmasının qapıçısı Yasin Bono İtaliyanın “Roma”sı ilə Avropa Liqasının final matçının ən yaxşı oyunçusu seçilib.***

Bu qənaətə UEFA gəlib. Avrokubokların qalibinin müəyyənləşdiyi 11 metrlik zərbədə qapıçı rəqibə iki penalti qola çevirməyə imkan verməyib və öz qapısına cəmi bir zərbə qaçırıb. Ümumilikdə Bono Avropa Liqası mövsümündə altı oyunda iştirak edib və bu matçlarda beş qol buraxıb.

Qeyd edək ki, İspaniyanın “Sevilya” və İtaliyanın “Roma” klublarının qarşılaşdığı Avropa Liqasının 2023/2024 mövsümünün final oyunu başa çatıb. Penaltilər seriyasında “Sevilya” 4:1 hesabı ilə qalib gəlib.

Matçın əsas vaxtında komandalar heç-heçəyə razılaşıblar - 1:1. Hesabı 35-ci dəqiqədə Paulo Dibala açıb. 55-ci dəqiqədə “Roma”nın müdafiəçisi Canluka Mançini topu öz qapısına göndərib.

Beləliklə, “Sevilya” tarixində yeddinci dəfə Avropa Liqasının (UEFA Kuboku) qalibi olub. Komanda sonuncu dəfə bu kuboka 2019/2020 mövsümündə yiyələnmişdi.

# “Sevilya” 7-ci dəfə Avroliqanın qalibi oldu



***UEFA Avropa Liqasında (AL) 2022/2023 mövsümünün qalibi müəyyənləşib.***

Macarıstanın paytaxtı Budapeştdəki ”Puşkaş Arena”da keçirilən final oyununda İtaliyanın ”Roma” klubuna qalib gələn İspaniya ”Sevilya”sı tarixində 7-ci dəfə titula sahib çıxıb.

Görüşün əsas vaxtı 1:1 hesablı heç-heçə ilə yekunlaşıb. İlk qolu 35-ci dəqiqədə ”canavarlar” vurublar. Paulo Dibala fərqlənib. 55-ci dəqiqədə La Liqa təmsilçisi tarazlığı bərpa edib.

”Roma”nın heyətində Canluka Mançini avtoqol müəllifi olub. Qalib müəyyənləşmədiyindən əlavə vaxt oynanılıb. Burada da hesab dəyişmədiyi üçün penaltilər seriyasından istifadə olunub. 11 metrlik cərimə zərbələrini daha dəqiq (4:1) yerinə yetirən ispaniyalılar turnirin qalibi olublar.

”Sevilya” bu qələbə sayəsində 2023/2024 mövsümündə UEFA Çempionlar Liqasının qrup mərhələsində iştirak hüququ qazanıb.

# "Messinin adı transfer siyahımızda yoxdur"

***”İnter”in vitse-prezidenti Xavyer Zanetti PSJ-nin argentinalı hücumçusu Lionel Messinin mümkün transferi haqda danışıb.***

Qol.az ”Tyc Sports”a istinadən xəbər verir ki, o deyib: “Hər kəs Lioneli sevir, lakin onun transferini ödəyə bilənlər azdır. Oyunçunun necə olduğunu və ona nə qədər pul xərcləndiyini nəzərə alsaq, bu, olduqca məntiqlidir. Messi hazırda layihəmizin planlarına daxil edilməyib. Onun adı transfer siyahımızda yoxdur”.

Qeyd edək ki, argentinalı hücumçunun klubu ilə hazırkı müqaviləsi iyunun 30-u başa çatır. Messinin karyerasını davam etdirmək variantları arasında ”Barselona” və Səudiyyə Ərəbistanının ”Əl-Hilal” klubları var.